**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN AZƏRBAYCAN DİLİ (DÖVLƏT DİLİ KİMİ) FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU)

## (I-XI SİNİFLƏR)

**Bakı –2013**

Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı tərkibdə yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır.

Sədr: Nizami Cəfərov - AMEA-nın müxbir üzvü, BDU-nun kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor. Üzvlər: Yəhya Kərimov - ARTPİ-nin direktor müavini, pedaqogika üzrə elmlər doktoru, professor, Yusif Seyidov - BDU-nun kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor, İsmayıl Məmmədov - AMEA-nın Dilçilik İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor, Buludxan Xəlilov - ADPU-nun fakültə dekanı, filologiya üzrə elmlər doktoru, professor, Əzizxan Tanrıverdiyev - ADPU-nun kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor, Faiq Şahbazlı - Azərbaycan Respublikası Təhsil Nazirliyinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, Asif Hacıyev - ARTPİ-nin aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru, Günay Mirzəzadə - Lahiyənin koordinatoru, ARTPİ-nin elmi işçisi, Bibixanım İbadova - ARTPİ-nin şöbə müdiri, Nazilə Abdullazadə - AMİ-nin prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru, Vaqif Qurbanov - AMİ-nin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, Aida Əfəndiyeva - Bakı şəhəri 23 nömrəli məktəbin müəllimi, Rəfiyeva Səidə - “Elitar” gimnaziyanin müəllimi, Əliyeva Yeganə - Bakı şəhəri 132-134 saylı lisey kompleksin müəllimi, Hüseynova Samirə - BMLK müəllimi, Sevda Abbasova - Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, Gülarə Xudiyeva - Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparırıcı məsləhətçisi, Şəymən Əliyeva - ARTPİ-nin böyük elmi işçisi, İradə Əfəndiyeva - Bakı şəhəri “Klassik” gimnaziyanın müəllimi, Aygün Əliyeva - BPKİA və YHİ-nin metodisti, pedaqogika üzrə fəlsəfə doktoru, Afət Xəlilova - Bakı şəhəri 201 nömrəli məktəbin müəllimi, Aynur Rüstəmova - Bakı Avropa liseyinin müəllimi, Elçin Manafov – Bakı şəhəri 49 nömrəli məktəbin müəllimi, Şamil Sadıqov - Bakı şəhəri 20 nömrəli məktəb-liseyin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, Nazim Nəsrəddinov – Bakı şəhəri “Elitar” gimnaziyanın müəllimi, Fərqanə İsayeva - Bakı şəhəri “Elitar” gimnaziyanın müəllimi, Tahirə Şıxlinskaya - Bakı Avropa liseyinin müəllimi, Səmagül Əsgərova - Bakı şəhəri 102 nömrəli məktəbin müəllimi.

**Təhsil proqramının (kurikulumun) internet üçün hazırlanmasına məsul olanlar:**

**Bibixanım İbadova,** ARTPİ-nin ibtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Akif Əliyev,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Ramiz Hüseynov,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin Humanitar fənlərinin təlimi bölməsinin müdiri

**Şəymən Əliyeva,** ARTPİ-nin ibtidai təhsilin kurikulumu şöbəsinin böyük elmi işçisi

**Günay Mirzəzadə,** ARTPİ-nin Humanitar fənlərin təlimi bölməsinin elmi işçisi

**Mündəricat**

**Giriş**
**I. Azərbaycan dili təliminin məzmunu**
1.1. Ümumi təlim nəticələri
1.2. Məzmun xətləri
1.3. Məzmun xətləri üzrə təlim nəticələri
1.4. Fəaliyyət xətləri
1.5. Məzmun standartları
I sinif
II sinif
III sinif
IV sinif
V sinif
VI sinif
VII sinif
VIII sinif
IX sinif
X sinif
XI sinif
1.6.Fəndaxili və fənlərarası inteqrasiya
**II.Təlim strategiyaları**
2.1. Azərbaycan dili (dövlət dili kimi) təliminin təşkilinə verilən əsas tələblər
2.2. Azərbaycan dili (dövlət dili kimi) təliminin təşkilində istifadə olunan forma və üsullar barədə
2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr
2.4. Azərbaycan dili (dövlət dili kimi) fənninin məzmun standartlarının şərhi
**III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi**
**Tezaurus**

**Resurslar**
**İstifadə olunmuş ədəbiyyat**

## Giriş

**Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.** Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu bu fənn üzrə ümumi məqsəd və vəzifələrə doğru istiqamətlənmiş standartların reallaşdırılması üçün bütün fəaliyyətlərin əsasını təşkil edir. Ümumi təlim nəticələrini, siniflər üzrə məzmun standartlarını, təlim strategiyalarını, qiymətləndirmə məsələlərini əhatə etməklə çərçivə sənədi kimi ümumi konseptual xarakter daşıyır. Dərslik və dərs vəsaiti müəlliflərinin, müəllimlərin, şagirdlərin, eləcə də idarəetmə və qiymətləndirmə ilə məşğul olanların fəaliyyətini istiqamətləndirir.

Təhsil proqramında (kurikulumda) məzmun standartları idraki, hissi və psixomator fəaliyyətləri əks etdirən nəticələr formasında ifadə olunur. Ümumi və siniflər səviyyəsində müəyyən olunmuş bu standartlar şagirdlərin təlim sahəsindəki nailiyyətini və inkişafını izləməyə imkan yaradır.

Təhsil proqramının (kurikulumun) məzmununa daxil olunan hissələr hazırlanarkən onların əlaqəliliyi, şagird şəxsiyyətinin formalaşdırılmasındakı rolu nəzərə alınır. Bütün məzmun standartları, öyrənmə və qiymətləndirmə sahələrindəki fəaliyyətlər bilavasitə şagirdlərə, onların ümumi inkişafına yönəldilir.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Azərbaycan dili dövlət dili kimi ümumtəhsil məktəblərində tədris olunmaqla Azərbaycan Respublikası Konstitusiyasının hüquqi tələblərindən birinin yerinə yetirilməsi təmin olunur.

Respublikada yaşayan vətəndaşların dövlət dilini öyrənmələrinə şərait yaranır. Təlim digər dillərdə aparılan məktəblərdə şagirdlər dövlət dili kimi Azərbaycan dilini öyrənmək imkanı əldə edirlər.

Bu məktəblərdə şagirdlər Azərbaycan dilində dinləyib-anlama, danışma, oxu və yazı üzrə müvafiq nitq vərdişlərinə yiyələnirlər. Cəmiyyətdə, onun müxtəlif sahələrində informativ-kommunikativ fəaliyyət göstərmək üçün əlaqə və ünsiyyət bacarıqları qazanırlar.

Azərbaycan dilinin öyrənilməsi şagirdlərin bu dildə olan elmi-kütləvi və bədii ədəbiyyatları, radio və televiziya verilişlərini, qəzet və jurnalları izləməsinə, onların vasitəsilə bilik və məlumatlar əldə etməsinə şərait yaradır, onların həyatı öyrənmək imkanları genişlənir. Dil və nitq vahidlərinə həssas yanaşmaq, onlardan ehtiyatla istifadə etmək, ümumilikdə dili qorumaq və inkişaf etdirmək üçün şagirdlərdə ümumi bacarıqlar formalaşır.

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi prosesində şagirdlərin öz ana dilinə müraciət olunması, yeri gəldikcə leksik, fonetik, qrammatik xüsusiyyətlərin izah edilməsi, bədii nümunələrə münasibət bildirilməsi onların ana dili və ədəbiyyatla bağlı bilik və bacarıqlarının möhkəmlənməsinə təsir göstərir. Şagirdlər dövlət dili kimi Azərbaycan dilini öyrənməklə dünyada geniş yayılmış türk dillərinə bələd olur, türk dilli ölkələrdə və ərazilərdə fəaliyyətlərini səmərəli qurmaq imkanları əldə edirlər.

Dövlət dili kimi Azərbaycan dili təliminin məqsədi şagirdlərdə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqları formalaşdırmaqla onların nitqini inkişaf etdirməkdən ibarətdir.

Bu məqsədlə aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

**ibtidai təhsil səviyyəsində** Azərbaycan əlifbasının, çox işlək sözlərin, söz birləşməsi və cümlə modellərinin, ən zəruri nitq etiketlərinin, tələffüz və yazı qaydalarının mənimsənilməsini təmin etmək, şagirdlərdə dinləyib-anlama, sürətli oxu, ilkin şifahi nitq və tərcümə bacarıqları formalaşdırmaq;

**ümumi orta təhsil səviyyəsində** Azərbaycan dilinin praktik öyrənilməsi üçün ibtidai təhsil üzrə qazanılan bacarıqlar inkişaf edilməklə zəruri fonetik,

leksik, qrammatik xüsusiyyətləri, dil və nitq vahidlərinin məna və intonasiyasını mənimsətmək, şüurlu və ifadəli oxuya, nitqin müxtəlif forma və tiplərinə dair bacarıqları, dövlət dili kimi Azərbaycan dilinə hörmət və məhəbbət hissini formalaşdırmaq;

**tam orta təhsil səviyyəsində** nitqi müxtəlif üslublarda dəqiq və düzgün qurmaq, Azərbaycan dilində düşünmək, ünsiyyət məqamına görə fikri sərrast ifadə etmək, zəruri yazı qaydalarını tətbiq etmək bacarıqları formalaşdırmaq.

## I. Azərbaycan dili (dövlət dili kimi) təliminin məzmunu

### 1.1. Ümumi təlim nəticələri

**İbtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə şagird:**

- dinlədiyi fikirlərə münasibət bildirir;
- kiçikhəcimli mətnləri sürətli və düzgün oxuyur, məzmununu izah edir;
- söz birləşməsi və cümlə nümunələrindən, zəruri tələffüz və yazı qaydalarından istifadə edərək kiçikhəcmli şifahi və yazılı mətnlər qurur, tərcümə edir;
- müşahidə etdiyi şəkil və illüstrasiyaların məzmun və əlamətlərini təsvir edir;
- məlumat xarakterli kiçik mətnləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

**Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:**

- dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir;
- şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;
- müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;
- öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir.
- nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir;

**Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:**

- dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırır;
- Azərbaycan dilində aparılan tədbirlərdə çıxış və təqdimatlar edir;
- oxuduğu mətnlərin məzmunu və üslubu haqqında rəy və mülahizələrini bildirir;
- nitqin müxtəlif üslub və tiplərində mətnlər qurur; sərbəst tərcümə bacarığı nümayiş etdirir.

## 1.2. Məzmun xətləri

Fənn üzrə məqsəd və vəzifələrin həyata keçirilməsi üçün aşağıdakı məzmun xətləri müəyyənləşdirilir:

- Dinləyib-anlama
- Danışma
- Oxu
- Yazı

**Dinləyib-anlama**

Dövlət dili kimi Azərbaycan dilinin təlimində dinləyib-anlama bacarıqlarının formalaşdırılması vacib amil kimi meydana çıxır. İbtidai təhsil səviyyəsində mənimsədilmiş ilkin bacarıqlar əsas və orta təhsil səviyyələrində daha da inkişaf etdirilir. Şagirdlər təlim prosesindəki bütün danışıqları, o cümlədən dialoji və monoloji nitq nümunələrini, oxunmuş elmi-kütləvi və bədii mətnləri, radio-televiziya verilişlərini, məktəb tədbirlərindəki çıxışları dinləyib başa düşür, eşitdiklərinə münasibət bildirirlər. Bütün bunlar şagirdlərə əldə etdikləri bacarıqlardan danışma zamanı istifadə etməyə, məktəbdə, cəmiyyətin digər sahələrində dinlədiklərini anlamaqla fəaliyyətlərini daha düzgün qurmağa imkan yaradır.

**Ümumi nəticələr**

**Şagird:**

- danışanı dinləyir və onu anladığını büruzə verir;

- dinlədiyi söz, ifadə və cümlələrin mənasını izah edir;
- dinlədiyi müxtəlif janrda və üslubda olan mətnləri anladığını nümayiş etdirir;
- danışanın nitqindəki əsas faktları seçə bilir.

**Danışma**

Danışma dinləyib-anlama məzmun xətti üzrə əldə olunmuş bacarıq və vərdişlərin inkişafı üçün zəmin yaradır. Şagirdlər eşitdiklərini ifadə etmək üçün danışma məzmun xətti üzrə bacarıqlardan istifadə edirlər.

Danışma nitq fəaliyyəti növlərindən biri olmaqla yanaşı, ünsiyyət və əlaqənin əsasını təşkil edən bacarıqlardan ibarət xətt kimi Azərbaycan dili təliminin məzmununda əhəmiyyətli yer tutur. Təhsilin bütün səviyyələrini əlaqələndirən bu məzmun xətti ünsiyyət üçün zəruri olan cümlə qurmaq, şifahi mətn tərtib etmək, dialoji və monoloji nitq formalarından istifadə etmək, nəqli, təsviri, mühakimə xarakterli şifahi məlumatlar və təqdimatlar hazırlamaq bacarıqlarının formalaşdırılmasını təmin edir.

**Ümumi nəticələr**

**Şagird:**

- dil vahidlərindən istifadə edərək müstəqil surətdə şifahi mətnlər qurur, fikirlərini sərbəst ifadə edir;
- ünsiyyət prosesində nitqin müxtəlif formalarından məqsədyönlü istifadə edir;
- müşahidə etdiyi əşya və hadisələri şifahi təsvir edir;
- dinlədiyi mətnin məzmununu məntiqi ardıcıllıqla nəql edir;
- müxtəlif məzmunlu tədbirlərdə yaş səviyyəsinə uyğun təqdimatlar edir.

**Oxu**

Oxu məzmun xətti ümumi təhsilin bütün səviyyələrində istifadə olunmaqla onları əlaqələndirir. Şagirdlərin müxtəlif mənbələrdən istifadə etməklə həyat şəraiti

üçün lazım olan fakt və hadisələri öyrənmə imkanlarını genişləndirir. Lüğət ehtiyatlarının zənginləşdirilməsi, ilkin oxu texnikasının, düzgün tələffüz, sürətli, düzgün, şüurlu, ifadəli oxu vərdişlərinin formalaşdırılması təmin olunur. Oxunmuş müxtəlif növdə, üslubda olan mətnlərin məzmunu üzərində iş aparmaqla fakt və hadisələri qruplaşdırmaq, müqayisə etmək, oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, onlara münasibət bildirmək üçün şərait yaranır. Şagirdlər idraki və hissi bacarıqlara yiyələnmək üçün imkanlar əldə edirlər.

**Ümumi nəticələr**

**Şagird:**

- oxuduğu mətndə sözlərin mənasını izah edir;
- orfoepiya qaydalarını, vurğu, intonasiya və fasiləni gözləməklə mətni düzgün oxuyur;
- Azərbaycan dilində olan mətnlər üzərində işləyir, onların məzmunu haqqında mülahizələrini bildirir;
- elmi-kütləvi və bədii mətnləri ifadəli oxuyur.

**Yazı**

İnsanlar yazı vasitəsi ilə həyat boyu ictimai, iqtisadi və mədəni sahələrdə əldə etdikləri nailiyyətləri ümumiləşdirir, elmi, bədii yaradıcılıq işləri aparır, özünün tarixini yaradır, onu gələcək nəsillər üçün sistemləşdirir, qoruyub saxlayırlar. Dilin özünəməxsusluğunu, zənginliyini mühafizə edirlər. Yazı Azərbaycan dili təlimində ən zəruri bacarıqları əhatə edir, oxu üzrə fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradır. Buna görə də yazı dövlət dili kimi Azərbaycan dili təlimində məzmun xətlərindən biri kimi qəbul olunur.

Yazı məzmun xətti kimi Azərbaycan dili təlimində ilkin yazı texnikasının, orfoqrafik, durğu işarəsi qaydalarının, dil vahidlərindən, onun üslubi imkanlarından, nitqin müxtəlif formalarından istifadə bacarıqlarının mənimsənilməsini təmin edir.

**Ümumi nəticələr**

**Şagird:**

- yazılı nitqində orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq edir;
- öz fikirlərini sərbəst, yazılı ifadə edir;
- dil vahidlərindən istifadə etməklə müxtəlif əməli yazı bacarıqlarını nümayiş etdirir;
- müxtəlif mənbələrdən istifadə edərək yazılı çıxış və təqdimatlar hazırlayır.

## 1.3. Məzmun xətləri üzrə təlim nəticələri

***İbtidai təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**Dinləyib-anlama**

**Şagird:**

- danışanı dinləyir və ona münasibət bildirir;
- nitq səslərini, söz və cümlələri fərqləndirir;
- sadə şifahi müraciətləri dinləyir və ona münasibət bildirir;
- dinlədiyi kiçikhəcmli mətnləri (hekayə, nağıl, şeir, tapmaca və s.) anladığını nümayiş etdirir.

**Danışma**

**Şagird:**

- öyrəndiyi söz, ifadə, cümlə modelləri əsasında fikirlərini ifadə edir;
- müşahidə etdiyi və maraqlarına uyğun olan kiçik fakt və hadisələri şərh edir;
- şəkil və illüstrasiyalar əsasında cümlə və mətn qurur.
- müəllim və yoldaşları ilə şifahi ünsiyyət qurur.

**Oxu**

**Şagird:**

- öyrəndiyi yeni sözləri fərqləndirir, onların mənalarını izah edir;
- mətni səlis və düzgün oxuyur;
- mətndəki əsas fakt və fikirləri müəyyənləşdirir;
- oxuduğu mətnin məzmununa münasibət bildirir.

**Yazı**

**Şagird:**

- davamlı və aydın yazı bacarığı nümayiş etdirir;
- öyrəndiyi orfoqrafiya, durğu işarəsi qaydalarını yazısında tətbiq edir;
- təqdim olunmuş mövzuda kiçikhəcmli nəqli və təsviri xarakterli yazılı mətnlər qurur;
- verilmiş mövzu üzrə kiçik təqdimatlar hazırlayır.

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**1. Dinləyib-anlama**

*Şagird:*

- dinlədiyi söz, ifadə, cümlə və mətnin mənasını anladığını nümayiş etdirir;
- dinlədiyi fikirlərlə bağlı mühakimələr yürüdür.

**2. Danışma**

*Şagird:*

- nitqində düzgün tələffüz qaydalarına əməl edir;
- nitqində müxtəlif yardımçı vasitələrdən (uyğun səs tonu, jest, mimika, nitq etiketləri) istifadə edir;
- fikirlərini nitqin müxtəlif formalarında (monoloji, dialoji) ardıcıl ifadə edir;

**3. Oxu**

*Şagird:*

- mətndəki söz və ifadələrin kontekstə uyğun mənalarını izah edir;
- elmi-kütləvi və bədii mətnləri düzgün və ifadəli oxuyur;
- elmi-kütləvi və bədii mətnləri məzmun və strukturuna görə təhlil edir.

**4. Yazı**

*Şagird:*

- mənbələrdən istifadə etməklə müxtəlif formalı (inşa, esse, hekayə) rabitəli mətnlər yazır;
- özünün və başqasının yazısını təkmilləşdirir;
- yazısında orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq edir;
- əməli yazılar (elan, məktub, teleqram, izahat, ərizə, tərcümeyi-hal, arayış, protokol, hesabat, akt) yazır.

***Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**1. Dinləyib-anlama**

*Şagird:*

- müxtəlif janr və üslublarda olan mətnlərə münasibət bildirir;
- dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırır;

**2. Danışma**

*Şagird:*

- fikirlərini sərbəst ifadə edir;
- yardımçı nitq vasitələrindən istifadə etməklə fikirlərini əsaslandırır;
- fikirlərini əsaslandırmaqla müxtəlif tipli mətnlər qurur, təqdimatlar hazırlayır.

**3. Oxu**

*Şagird:*

- mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah edir;
- üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur;
- mətni üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir.

**4. Yazı**

*Şagird:*

- üslubi xüsusiyyətlər nəzərə alınmaqla müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır;
- üslubi xüsusiyyətləri nəzərə almaqla mətni təkmilləşdirir;
- yazısında düzgün yazı qaydalarına əməl edir;
- müxtəlif mənbələrdən istifadə edərək çıxışlar, təqdimatlar hazırlayır.
- əməli yazılar (rəy, məruzə, referat, təqdimat) yazır.

## 1.4. Fəaliyyət xətləri

Ana dili üzrə məzmun standartları müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət istiqamətləri ilə əlaqəlilik nəzərə alınmışdır:

- Problemin həlli
- Mühakiməyürütmə və əsaslandırma
- Ünsiyyət
- Tədqiqetmə
- Tətbiqetmə

## 1.5. Məzmun standartları

### I sinif

**I sinfin sonunda şagird:**

•sadə şifahi nitq nümunələrinin məzmununu başa düşdüyünü nümayiş etdirir;

•öyrəndiyi sözlərin mənasını izah etməklə onların əsasında cümlələr qurur;

•müxtəlif əşyalar, sadə süjetli şəkillər və hadisələr ətrafında fikirlərini ifadə edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**
**1. Dinləyib-anlama**
**Şagird:**
*1.1.Sadə şifahi nitq nümunələrinin məzmununu başa düşdüyünü nümayiş etdirir.*

1.1.1.Sadə şifahi göstərişləri təkrarlayır və onlara əməl edir.
1.1.2. Aydınlaşdırmaq məqsədi ilə suallar verir.
1.1.3. Adını eşitdiyi əşya və hadisəni şəkildə göstərir.

2. **Danışma**

**Şagird:**

*2.1. Öyrəndiyi sözlərin mənasını izah etməklə onların əsasında cümlələr qurur.*

2.1.1. Öyrəndiyi sözün mənasını izah edir.
2.1.2. Öyrəndiyi sözlərdən birləşmə və cümlələr qurur.

*2.2. Müxtəlif əşyalar, sadə süjetli şəkillər və hadisələr ətrafında fikirlərini ifadə edir.*

2.2.1. Müşahidə etdiyi əşya və hadisələri adlandırır.
2.2.2. Müşahidə etdiyi əşya və hadisələri sadə formada təsvir edir.
2.2.3. Özü, ailəsi, məktəb və yoldaşları haqqında sadə dialoqlar qurur.

## II sinif

**II sinfin sonunda şagird:**

- təqdim olunan nitq nümunələrini anlayır;
- verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir;
- verilmiş nitq nümunələrindən istifadə etməklə ünsiyyət qurur;
- ilkin oxu bacarıqları nümayiş etdirir;
- kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir;
- ilkin yazı bacarıqları nümayiş etdirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Təqdim olunan sadə nitq nümunələrini anladığını nümayiş etdirir.*

1.1.1. Müraciətlərə uyğun sadə tapşırıqları icra edir.
1.1.2. Dinlədiyi kiçikhəcmli mətnlərdəki çətin sözləri müəyyənləşdirir.
1.1.3. Dinlədiyi kiçikhəcmli mətnlərin məzmununa aid suallar tərtib edir.

**2. Danışma**

**Şagird:**

*2.1.Düzgün tələffüz bacarıqlarını nümayiş etdirir.*

2.1.1. Verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir.

2.1.2. Kiçikhəcmli sadə cümlələri (sual, nəqli) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.

*2.2.Verilmiş sadə nitq nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.*

2.2.1. Müşahidə etdiyi əşya və hadısələri qruplaşdırır.

2.2.2. Müşahidə etdiyi əşya və hadisələri birinci şəxsin (mən) dili ilə təsvir edir.

2.2.3. Sadə cümlələrdən (nəqli və sual) istifadə etməklə kiçikhəcmli dialoqlar qurur.

**3. Oxu**

**Şagird:**

*3.1. İlkin oxu bacarıqlarını nümayiş etdirir.*

3.1.1. Hərfləri və sözləri, söz birləşmələri və cümlələri düzgün oxuyur.

3.1.2. Bir neçə cümlədən ibarət kiçik mətnləri oxuyur və məzmununu izah edir.

3.1.3. Oxuduğu kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

**4. Yazı**

**Şagird:**

*4.1. İlkin yazı bacarıqları nümayiş etdirir.*

4.1.1. Hərfləri və sözləri düzgün yazır.

4.1.2. Verilmiş söz birləşmələri və cümlə nümunələrini düzgün yazır.

4.1.3. Kiçikhəcmli mətnlər (verilmiş təsvirlərə əsasən) yazır.

## III sinif

**III sinfin sonunda şagird:**

•dinlədiyi nitq nümunələrini anlayır;

•öyrəndiyi söz və söz birləşmələrini düzgün tələffüz edir;

•öyrəndiyi nitq nümunələrindən istifadə etməklə sadə formada ünsiyyət qurur;

•düzgün oxu bacarıqları nümayiş etdirir;

•məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri ana dilinə və əksinə tərcümə edir;

•düzgün yazı bacarıqları nümayiş etdirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1.Təqdim olunan nitq nümunələrini anladığını nümayiş etdirir.*

1.1.1.Müraciətlərə uyğun tapşırıqlara əməl edir.

1.1.2. Dinlədiyi sözləri və söz birləşmələrini cümlələrdən fərqləndirir.

1.1.3. Dinlədiyi mətni məzmununa uyğun adlandırır.

2. **Danışma**

**Şagird:**

*2.1.Düzgün tələffüz bacarıqlarını nümayiş etdirir.*

2.1.1.Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir.

2.1.2. Sadə cümlələrdən (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.

*2.2.Verilmiş sadə nitq nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.*

2.2.1. Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir.

2.2.2. Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin (o) dili ilə təsvir edir.

2.2.3.Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) istifadə etməklə kiçikhəcmli dialoqlar qurur.

**3. Oxu**

**Şagird:**

*3.1.Düzgün oxu bacarıqları nümayiş etdirir.*

3.1.1.Kiçikhəcmli mətnləri düzgün oxuyur.

3.1.2.Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlimat verir.

3.1.3.Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

**4. Yazı**

**Şagird:**

*4.1. Düzgün yazı bacarıqlarını nümayiş etdirir.*

4.1.1. Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır.

4.1.2. Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir.
4.1.3.Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır.

## IV sinif

**IV sinfin sonunda şagird:**

- dinlədiyi nitq nümunələrini anlayır;
- düzgün tələffüz bacarıqları nümayiş etdirir;
- nitq nümunələrindən istifadə etməklə sadə formada ünsiyyət qurur;
- düzgün oxu bacarıqları nümayiş etdirir;
- məlumat xarakterli kiçikhəcmli mətnləri ana dilinə və əksinə tərcümə edir;
- düzgün yazı bacarıqları nümayiş etdirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1.Təqdim olunan nitq nümunələrini anladığını nümayiş etdirir.*

1.1.1.Sinif daxilində müraciətləri yerinə yetirir.
1.1.2.Dinlədiyi cümlələri intonasiyaya görə fərqləndirir.
1.1.3. Dinlədiyi mətnləri hissələrə ayırır və onları adlandırır.

**2. Danışma**

**Şagird:**

*2.1. Düzgün tələffüz bacarıqlarını nümayiş etdirir.*

2.1.1.Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir.
2.1.2. Cümlələri düzgün intonasiya ilə tələffüz edir.

*2.2.Verilmiş sadə nitq nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.*

2.2.1. Əşya və hadisələrə öz münasibətini bildirir.
2.2.2. Müxtəlif şəxslərin dilindən kiçikhəcmli mətnlər qurur.
2.2.3. Sadə cümlələrdən istifadə etməklə ünsiyyət qurur.

**3. Oxu**

**Şagird:**
*3.1. Düzgün oxu bacarıqlarını nümayiş etdirir.*
3.1.1. Kiçikhəcmli mətnləri düzgün və sürətli oxuyur.
3.1.2.Oxuduğu kiçikhəcmli mətnlərin məzmununu danışır.
3.1.3.Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətnləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

**4. Yazı**
**Şagird:**
*4.1. Düzgün yazı bacarıqlarını nümayiş etdirir.*
4.1.1.Öyrəndiyi sözləri və cümlələri düzgün yazır.
4.1.2. Oxunmuş mətnin məzmununu yazır.
4.1.3. Kiçikhəcmli mətnlər (açıqca, məktub, inşa) yazır.

## V sinif

**V sinfin sonunda şagird:**

- dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir;
- nitq prosesində danışıq səslərini düzgün tələffüz edir, jest və mimikalardan məqsədəuyğun istifadə edir;
- deyəcəyi əsas fikri müəyyənləşdirir və mülahizələrini bildirir;
- mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir, orfoepik qaydalara uyğun oxuyur;
- mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir;
- müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir;
- sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (elan, məktub) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Suallara cavab verir.

1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Nitq prosesində sait və samitləri düzgün tələffüz edir.

2.1.2. Nitq prosesində jest və mimikalardan istifadə edir.

2.1.3. Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir.

2.1.4. Deyəcəyi əsas fikri müəyyənləşdirir.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir.

3.1.2. Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur.

3.1.3. Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir.

4.1.2. Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir.

4.1.3. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır.

## VI sinif

**VI sinfin sonunda şagird:**

- dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir;
- nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir, nitqində ritm və tempdən məqsədəuyğun istifadə edir;
- fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır və mətnin hissələrinə müvafiq qruplaşdırır;
- mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir;
- mətndəki sözləri düzgün vurğu ilə oxuyur;
- mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir;
- mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir və mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir;
- əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1.Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir.

1.1.2. Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir.

2.1.2.  Nitqində ritm və tempdən istifadə edir.

2.1.3. Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır.

2.1.4. Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.

3.1.2. Mətndəki sözləri düzgün vurğu ilə oxuyur.

3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir.

4.1.2. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir.

4.1.3. Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

## VII sinif

**VII sinfin sonunda şagird:**

- dinlədiyi mətnin hissələrini müəyyənləşdirir;
- ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir;
- nitqini uyğun səs tonu ilə tənzimləyir;
- müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir;
- mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir;
- mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir, səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur;
- nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır;
- nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir.

2.1.2. Nitqini uyğun səs tonu ilə tənzimləyir.

2.1.3. Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir.

2.1.4. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir.

3.1.2. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.

3.1.3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır.

4.1.2. Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır.

4.1.3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

## VIII sinif

**VIII sinfin sonunda şagird:**

- dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir;
- söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir, nitqində məntiqi vurğudan düzgün istifadə edir;
- müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir, mətnin hissələri arasında əlaqələri gözləməklə danışır;
- mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir;
- oxuduğu mətndəki əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir;
- seçdiyi nümunələrlə yazısını zənginləşdirir;
- həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.

2.1.2. Nitqində məntiqi vurğudan düzgün istifadə edir.

2.1.3. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.

2.1.4. Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.

3.1.2. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.

3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Topladığı fakt və məlumatlara münasibətini bildirir.

4.1.2. Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.

4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

## IX sinif

**IX sinfin sonunda şagird:**

- dinlədiyi mətnin məzmununu şərh edir, fikirlərlə bağlı mühakimə yürüdür;
- mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir;
- nitq etiketlərindən məqamında istifadə edir;
- müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir, fikirlərini məntiqi ardıcıllıqla ifadə edir;
- mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir, məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur;
- mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır;

- mənbələrdən istifadə etməklə rabitəli mətnlər yazır, özünün və başqasının yazısını təkmilləşdirir;
- mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir;
- müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1 Dinlədiyi mətnin məzmununu şərh edir.

1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimə yürüdür.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.

2.1.2. Nitq etiketlərindən məqamında istifadə edir.

2.1.3. Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

2.1.4. Fikirlərini məntiqi ardıcıllıqla ifadə edir.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir.

3.1.2. Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur.

3.1.3. Mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Mənbələrdən istifadə etməklə rabitəli mətnlər yazır.

4.1.2. Məntiqi ardıcıllığı gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.

4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

4.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

## X sinif

**X sinfin sonunda şagird:**

- KİV-dən dinlədiyi mətnləri şərh edir, fikirləri real həyatla müqayisə edir;
- nitqində dil vahidlərindən, yardımçı vasitələrdən (atalar sözü, məsəllər və sitatlar) məqsədyönlü istifadə edir;
- fikirlərini müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlərlə ifadə edir;
- oxuduğu mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə, mətnləri üslubuna görə fərqləndirir;
- müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır və təkmilləşdirir;
- mətnin tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (rəy, məruzə) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. KİV-dən dinlədiyi mətnləri şərh edir.

1.1.2. Dinlədiyi mətndəki fikirləri real həyatla müqayisə edir.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Nitqində dil vahidlərindən məqsədyönlü istifadə edir.

2.1.2. Nitqini zənginləşdirmək məqsədilə atalar sözü, məsəllər və sitatlardan istifadə edir.

2.1.3. Müxtəlif mövqeli fikirləri real hadisələrlə müqayisə edir.

2.1.4. Fikirlərini müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlərlə ifadə edir.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirir.

3.1.2. Oxuduğu mətnləri üslubuna görə fərqləndirir.

3.1.3. Oxuduğu mətnin tipini (nəqli, təsviri, mühakimə) müəyyənləşdirir.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır.

4.1.2. Mətni tipinə (nəqli, təsviri, mühakimə) uyğun olaraq təkmilləşdirir.

4.1.3. Mətnin tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (rəy, məruzə) yazır.

## XI sinif

**XI sinfin sonunda şagird:**

- dinlədiyi müxtəlif janr və üslubda olan mətnlərə münasibət bildirir, mühakimələrini əlavə fakt və nümunələrlə əsaslandırır;
- mənbələrə istinad etməklə əsaslandırılmış müxtəlif tipli mətnlər qurur, fikirlərini sərbəst ifadə edir;
- üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur;
- mətni üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir;
- müxtəlif üslublarda mətnlər yazır və təkmilləşdirir;
- üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır, durğu işarələri qaydalarına əməl edir;

- müxtəlif əməli yazılar (referat, təqdimat) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi müxtəlif janr və üslubda olan mətnlərə münasibət bildirir.

1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimələrini əlavə fakt və nümunələrlə əsaslandırır.

**2. Danışma**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Fikirlərini sərbəst ifadə edir.

2.1.2. Yardımçı vasitələrdən istifadə etməklə əsaslandırılmış nitq qurur.

2.1.3. Müxtəlif mənbələrə istinad etməklə əsaslandırılmış təqdimatlar hazırlayır.

2.1.4. Fikirlərini əsaslandırmaqla müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər qurur.

**3. Oxu**

**Şagird:**

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah edir.

3.1.2. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur.

3.1.3. Mətni üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir.

**4. Yazı**

***Şagird:***

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Müxtəlif üslublu mətnlər yazır.

4.1.2. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni təkmilləşdirir.

4.1.3. Üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır, durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (referat, təqdimat) yazır.

## 1.6. Fəndaxili və fənlərarası inteqrasiya

Fəndaxili və fənlərarası inteqrasiyanın nəzərə alınması ümumpedaqoji prinsiplərdən biri kimi təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin didaktik əsasını təşkil edir, məzmun və təlim strategiyalarının formalaşmasında əhəmiyyətli rol oynayır. İlk növbədə, məzmun standartlarının müəyyən olunmasında və qruplaşdırılmasında ona istinad olunur.

Hər sinifdə məzmun xətləri üzrə təqdim olunan standartlar arasında üfüqi əlaqələrin olması diqqət mərkəzində saxlanılır. Bu əlaqələr daha çox standartlarda istifadə edilmiş məzmun və fəaliyyətlərə əsasən qurulur.

Belə üfüqi inteqrasiyanın nəzərə alınması fənn daxilində anlayışların, bacarıq və vərdişlərin, əlaqələnmiş sistemli məzmunun formalaşmasına imkan yaradır. Eləcə də, dərslik və digər vəsaitlərin hazırlanması işini, müəllimlərin tədris fəaliyyətini istiqamətləndirir.

Fənn daxilində şaquli əlaqələr (cədvəl № 2) siniflər üzrə məzmun standartları arasında bağlılığı təmin etməklə onların inkişafını tənzimləyir. Şagirdlərin Azərbaycan dilinə aid bacarıq və vərdişlərindəki dəyişiklikləri izləməyə, onların bilik, bacarıq və vərdişlərinin səmərəliliyinə şərait yaradır. Öyrənilmiş bilikləri möhkəmləndirir, daha etibarlı nitq vahidlərinin formalaşmasına təkan verir.

Fəndaxili inteqrasiya zamanı Azərbaycan dili ilə digər fənlərin uyğun anlayışları arasında əlaqələr müəyyənləşdirilir, dərsliklərdə, təlim prosesində ondan istifadə imkanları konkretləşdirilir. Bu əlaqələrin müəyyən olunmasında şagirdlərin ümumi bacarıqlarının formalaşdırılması zəruri məqsəd kimi diqqət mərkəzində saxlanılır.

**Fəndaxili və fənlərarası inteqrasiya cədvəli**

| I sinif | II sinif | III sinif | IV sinif |
|---|---|---|---|
| **1. Dinləyib-anlama** | | | |
| *1.1.Sadə şifahi nitq nümunələrinin məzmununu başa düşdüyünü nümayiş etdirir.* | 1.1. *Təqdim olunan sadə nitq nümunələrini anladığını nümayiş etdirir.* | 1.1.*Təqdim olunan nitq nümunələrini anladığını nümayiş etdirir.* | 1.1.*Təqdim olunan nitq nümunələrini anladığını nümayiş etdirir.* |
| 1.1.1.Sadə şifahi göstərişləri təkrarlayır və onlara əməl edir.<br>X-d.1.1 | 1.1.1.Müraciətlərə uyğun sadə tapşırıqları icra edir.<br>X-d.1.1. | 1.1.1.Müraciətlərə uyğun tapşırıqlara əməl edir.<br>X-d.1.1. | 1.1.1.Sinifdaxilində müraciətləri yerinə yetirir.<br>X-d.1.1. |
| 1.1.2.Aydınlaşdırmaq məqsədilə suallar verir. | 1.1.2. Dinlədiyi kiçikhəcimli mətnlərdəki çətin sözləri müəyyənləşdirir. | 1.1.2. Dinlədiyi sözləri və söz birləşmələrini cümlələrdən fərqləndirir.<br>X-d.1.1.2. | 1.1.2.Dinlədiyi cümlələri intonasiyaya görə fərqləndirir.<br>A-d.2.2.1.<br>X-d. 2.1.2. |
| 1.1.3. Adını eşitdiyi əşya və hadisəni şəkildə göstərir.<br>.X-d.1.1.2. | 1.1.3.Dinlədiyi kiçikhəcimli mətnlərin məzmununa aid suallar tərtib edir<br>A-d.1.1.1. | 1.1.3**.** Dinlədiyi mətni məzmununa uyğun adlandırır. | 1.1.3. Dinlədiyi mətnləri hissələrə ayırır və onları adlandırır.<br>A-d.2.2.4. |
| **2. Danışma** | | | |
| 2.1.*Öyrəndiyi sözlərin mənasını izah etməklə onların əsasında cümlələr qurur.* | 2.1.*Düzgün tələffüz bacarıqlarını nümayiş etdirir.* | 2.1.*Düzgün tələffüz bacarıqlarını nümayiş etdirir.* | 2.1.*Düzgün tələffüz bacarıqlarını nümayiş etdirir.* |
| 2.1.1. Oyrəndiyi sözuün mənasını izah edir.<br>X-d.2.2.4. | 2.1.1.Verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir.<br>X-d. 2.1.3. | 2.1.1.Verilmiş söz,söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. H-b.3.1.1.,3.1.2. | 2.1.1.Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir.<br>X-d.2.1.1. |
| 2.1.2 Öyrəndiyi sözlərdən birləşmə və cümlələr qurur | 2.1.2.Kiçikhəcmli sadə cümlələri (sual, nəqli) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.<br>X-d.2.1.4. | 2.1.2.Sadə cümlələrdən(əmr,nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.<br>X-d.2.1.2. | 2.1.2.Cümlələri düzgün intonasiya ilə tələffüz edir.<br>A-d.2.2.1. |
| 2.2. *Müxtəlif əşyalar, sadə süjetli* | 2.2.*Verilmiş sadə nitq* | 2.2.*Verilmiş sadə nitq* | 2.2.*Verilmiş sadə nitq nümunələrindən* |

| | | | |
|---|---|---|---|
| *şəkillər və hadisələr ətrafında fikirlərini ifadə edir.* | *nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.* | *nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.* | *istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.* |
| 2.2.1. Müşahidə etdiyi əşya və hadisələri adlandırır.<br>X-d.2.2.1. | 2.2.1. Müşahidə etdiyi əşya və hadısələri qruplaşdırır.<br>H-b.1.1.1. | 2.2.1. Əşya və hadisələrin əlamətlə rini (kəmiyyət ,keyfiyyət, forma) təsvir edir.<br>X-d.2.2.3. | 2.2.1.Əşya və hadisələrə öz münasibətini bildirir.<br>X-d.2.2.2. |
| 2.2.2.Müşahidə etdiyi əşya və hadisələri sadə formada təsvir edir.<br>X-d.2.2.3. | 2.2.2. Müşahidə etdiyi əşya və hadisələri birinci şəxsin**(mən)** dili ilə təsvir edir.<br>H-b.2.2.3. | 2.2.2.Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin **(o)** dili ilə təsvir edir.<br>X-d.2.2.2. | 2.2.2. Müxtəlif şəxslərin dilindən kiçikhəcimli mətnlər qurur.<br><br>A-d.1.2.2. |
| 2.2.3.Özü, ailəsi, məktəb və yoldaşları haqqında sadə dioloqlar qurur.<br>H-b.2.1.3. | 2.2.3.Sadə cümlələrdən (nəqli və sual)istifadə etməklə kiçikhəcimli dioloqlar qurur. | 2.2.3.Sadə cümlələrdən (nəqli,sual,əmr,nida) istifadə etməklə kiçikhəcimli dioloqlar qurur.<br>A-d.1.2.2. | 2.2.3.Sadə cümlələrdən istifadə etməklə ünsiyyət qurur.<br>X-d.2.2.4. |
| | | **Oxu** | |
| | 3.1. *İlkin oxu bacarıqlarını nümayiş etdirir.* | 3.1.*Düzgün oxu bacarıqları nümayiş etdirir.* | 3.1.*Düzgün oxu bacarıqlarını nümayiş etdirir.* |
| | 3.1.1.Hərfləri və sözləri, söz birləşmələri və cümlələri düzgün oxuyur.<br>A-d.2.2.1. | 3.1.1.Kiçikhəcmli mətnləri düzgün oxuyur.<br><br>X-d.3.1.3. | 3.1.1.Kiçikhəcmli mətnləri düzgün və surətli oxuyur.<br>X-d.3.1.1.,A-d. 2.2.1. |
| | 3.1.2. Bir neçə cümlədən ibarət kiçik mətnləri oxuyur və məzmununu izah edir.<br>A-d.2.2.1. | 3.1.2. Oxuduğu kiçikhəcimli mətnin məzmunu barədə məlimat verir.<br>X-d.3.1.3. | 3.1.2. Oxuduğu kiçikhəcimli mətnlərin məzmununu danışır.<br>X-d.3.1.2 |
| | 3.1.3. Oxuduğu kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. | 3.1.3. Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.<br>A-d. 4.1.3. | 3.1.3. Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətnləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.<br>A-d.4.1.3. |

| Yazı | | | |
|---|---|---|---|
| | 4.1.*İlkin yazı bacarıqları nümayiş etdirir.* | 4.1. *Düzgün yazı bacarıqlarını nümayiş etdirir.* | 4.1.*Düzgün yazı bacarıqlarını nümayiş etdirir.* |
| | 4.1.1. .Hərfləri və sözləri düzgün yazır.<br>X-d.3.1.1 | 4.1.1.Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır.<br>A-d.3.1.4., X-d.4.1.2. | 4.1.1.Öyrəndiyi sözləri və cümlələri düzgün yazır.<br>X-d.4.1.1. |
| | 4.1.2. Verilmiş söz birləşmələri və cümlə nümunələrini düzgün yazır.<br>A-d.3.1.1. | 4.1.2. Yazı prosesində durğu işarələrinə(nöqtə,sual işarəsi,nida) aid qaydalara əməl edir. | 4.1.2. Oxunmuş mətnin məzmununu yazır.<br>X-d.4.1.2. |
| | 4.1.3. Kiçikhəcmli mətnlər(verilmiş təsvirlərə əsasən)yazır. | 4.1.3. Kiçikhəcmli mətnlər(açıqca, məktub)yazır.<br>A-d.3.1.5. | 4.1.3. Kiçikhəcmli mətnlər(açıqca,məktub,inşa) yazır.<br>A-d.3.1.5. |

| V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|---|
| **1. Dinləyib-anlama** | | | | | | |
| *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* |
| 1.1.1. Suallara cavab verir.<br>X-d. 1.1.1. | 1.1.1.Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir.<br>X-d. 3.1.4. | 1.1.1. Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir.<br>Ə. 1.1.3. | 1.1.1. Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>X-d. 2.1.3. | 1.1.1 Dinlədiyi mətnin məzmununu şərh edir. X-d. 1.1.2. | 1.1.1. Dinlədiyi müxtəlif janr və üslubda olan mətnlərə münasibət bildirir.<br>X-d. 2.1.1. | 1.1.1. Müxtəlif janr və üslubda olan mətnlərə münasibət bildirir. X-d. 2.1.2. |
| 1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir.<br>Az-t. 2.1.2. | 1.1.2. Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir.<br>X-d. 1.1.2. | 1.1.2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.<br>X-d. 3.1.4. | 1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimə yürüdür.<br>X-d.1.1.1. | 1.1.2. Dinlədiyi mətndəki fikirləri real həyatla müqayisə edir.<br>Az-t. 4.1.1. | 1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mü-hakimələrini əlavə fakt və nümunələrlə əsaslandırır. Ə. 1.1.4. |
| **2. Danışma** | | | | | | |
| *2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.* |
| 2.1.1. Nitq prosesində sait və samitləri düzgün tələffüz edir.<br>Ə. 1.1.2.<br>X-d. 3.1.2. | 2.1.1. Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir.<br>X-d. 3.1.2. | 2.1.1. Ahəng qa-nununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir.<br>X-d. 3.1.1. | 2.1.1. Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>X-d. 3.1.1. | 2.1.1. Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>X-d. 3.1.1. | 2.1.1. Nitqində dil vahidlərindən məqsədyönlü istifadə edir.<br>Ə. 1.1.2. | 2.1.1. Fikirlərini sərbəst ifadə edir. |
| 2.1.2. Nitq | 2.1.2. Nitqində ritm | 2.1.2. Nitqini uyğun | 2.1.2. Nitqində | 2.1.2. Nitq etiketlə- | 2.1.2. Nitqini | 2.1.2. Yardımçı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| prosesində jest və mimikalardan istifadə edir. Ə. 2.1.2. | və tempdən istifadə edir. Ə. 2.1.2. | səs tonu ilə tənzimləyir. X-d. 3.1.2. | məntiqi vurğudan düzgün istifadə edir. X-d. 3.1.2. | rindən məqamında istifadə edir. X- d. 2.1.1. | zənginləşdirmək məqsədilə atalar sözü, məsəllər və sitatlardan istifadə edir. Ə. 2.1.2. X-d. 4.1.3. | vasitələrdən istifadə etməklə əsaslandırılmış nitq qurur. X-d. 2.1.3. |
| 2.1.3. Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. Ə. 1.2.4. | 2.1.3. Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. Ə. 1.1.2., 1.2.4. X-d. 3.1.2. | 2.1.3. Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. Ə.1.2.4. | 2.1.3. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. Az-t. 1.2.2. | 2.1.3. Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir. X-d. 3.1.4. | 2.1.3. Müxtəlif mövqeli fikirləri real hadisələrlə müqayisə edir. Ə. 1.2.1. | 2.1.3. Müxtəlif mənbələrə istinad etməklə əsaslandırılmış təqdimatlar hazırlayır. X-d. 2.1.2. |
| 2.1.4. Deyəcəyi əsas fikri müəyyənləşdirir. X-d. 2.1.1. | 2.1.4. Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. X-d. 3.1.4. | 2.1.4. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. X-d. 2.1.1. | 2.1.4. Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. X-d. 2.1.3. | 2.1.4. Fikirlərini məntiqi ardıcıllıqla ifadə edir. X-d. 3.1.3. | 2.1.4. Fikirlərini müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlərlə ifadə edir. X-d. 2.1.2. | 2.1.4. Fikirlərini əsaslandırmaqla müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər qurur. |
| **3. Oxu** | | | | | | |
| *3.1. Mətni mənimsədiyini nümayiş etdirir.* | *3.1. Mətni mənimsədiyini nümayiş etdirir.* | *3.1. Mətni mənimsədiyini nümayiş etdirir.* | *3.1. Mətni mənimsədiyini nümayiş etdirir.* | *3.1. Mətni mənimsədiyini nümayiş etdirir.* | *3.1. Mətni mənimsədiyini nümayiş etdirir.* | *3.1. Mətni mənimsədiyini nümayiş etdirir.* |
| 3.1.1. Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. Ə. 1.1.1., 2.1.1. | 3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. Az-t. 3.1.2. | 3.1.1. Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. X-d. 3.1.1. | 3.1.1. Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. X-d. 3.1.1. | 3.1.1. Mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. X-d. 3.1.1 | 3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirir. X-d. 3.1.3. | 3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah edir. X-d. 3.1.1 |
| 3.1.2. Mətndəki sözləri orfoepik qaydalar uyğun oxuyur. | 3.1.2. Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. X-d. 3.1.2. | 3.1.2. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.2. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə | 3.1.2. Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur. | 3.1.2. Oxuduğu mətnləri üslubuna görə fərqləndirir. X-d. 3.1.3. | 3.1.2. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ə. 1.1.2., 1.2.4.<br>X-d. 3.1.3. | | X-d. 3.1.2. | edir.<br>X-d. 3.1.2. | X-d. 3.1.2. | | X-d. 3.1.2. |
| 3.1.3. Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir.<br>X-d. 1.1.2. | 3.1.3. MətniN tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir.<br>Ə. 1.1.3.<br>X-d. 3.1.3 | 3.1.3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir.<br>X-d. 3.1.3. | 3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.<br>X-d. 2.1.2. | 3.1.3. Mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.<br>Ə. 2.1.1. | 3.1.3. Oxuduğu mətnin tipini (nəqli, təsviri, mühakimə) müəyyənləşdirir.<br>Ə. 1.1.5. | 3.1.3. Mətni üslubi-struktur xüsusiyyət-lərinə görə təhlil edir.<br>X-d. 3.1.3. |
| **4. Yazı** | | | | | | |
| *4.1. Rabitəli yazı vərdişlərinə yiyələn-diyini nümayiş etdi-rir.* | *4.1. Rabitəli yazı vərdişlərinə yiyələn-diyini nümayiş etdi-rir.* | *4.1. Rabitəli yazı vərdişlərinə yiyələn-diyini nümayiş etdi-rir.* | *4.1. Rabitəli yazı vərdişlərinə yiyələn-diyini nümayiş etdi-rir.* | *4.1. Rabitəli yazı vərdişlərinə yiyələn-diyini nümayiş etdi-rir.* | *4.1. Rabitəli yazı vərdişlərinə yiyələn-diyini nümayiş etdi-rir.* | *4.1. Rabitəli yazı vərdişlərinə yiyələn-diyini nümayiş etdi-rir.* |
| 4.1.1. Müxtəlif yazı formalarını (inşa, esse, hekayə) fərqləndirir.<br>Ə. 3.1.1. | 4.1.1. Mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir.<br>Ə. 3.1.1. | 4.1.1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır.<br>X-d. 4.1.1. | 4.1.1. Topladığı fakt və məlumatlara münasibətini bildirir. | 4.1.1. Mənbələrdən istifadə etməklə rabitəli mətnlər yazır.<br>X-d. 4.1.1. | 4.1.1. Müxtəlif tipli (nəqli, təsviri, müha-kimə) mətnlər yazır.<br>Ə. 3.1.3. | 4.1.1. Müxtəlif üslublu mətnlər yazır.<br>X-d. 3.1.2. |
| 4.1.2. Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir.<br>Ə. 1.1.3. | 4.1.2. Mətnin hissələri arasında əlaqələri müəy-yənləşdirir.<br>Ə. 3.1.4.<br>Az-t. 2.2.3. | 4.1.2. Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır.<br>X-d. 3.1.2. | 4.1.2. Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.<br>X-d. 4.1.2. | 4.1.2. Məntiqi ardıcıllığı gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. | 4.1.2. Mətni tipinə (nəqli, təsviri, müha-kimə) uyğun olaraq təkmilləşdirir.<br>X-d. 4. 1.1. | 4.1.2. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni təkmilləşdirir.<br>X-d. 4. 1.1. |
| 4.1.3. Sait və samit-lərin, mürəkkəb söz-lərin yazılış qaydalarına, cümlə-nin sonunda və dia- | 4.1.3. Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl | 4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işa-rələrindən istifadə edir. | 4.1.3. Mətnin tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl | 4.1.3. Üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır, durğu işarələri |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| loqlarda durğu işarə-ləri qaydalarına əməl edir. | X-d. 4. 1.2. , 4.1.3. | X-d. 4. 1.3. | edir.<br>X-d. 4. 1.3. | X-d. 4. 1.3. | edir. | qaydalarına əməl edir.<br>X-d. 4. 1.3. |
| 4.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır.<br>Ə. 3.1.3. | 4.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.<br>X-d. 4. 1.4. | 4.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.<br>X-d. 4. 1.4. | 4.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.<br>X-d. 4. 1.4. | 4.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır.<br>X-d. 4. 1.4. | 4.1.4. Müxtəlif əməli yazılar (rəy, məruzə) yazır.<br>X-d. 4. 1.4. | 4.1.4. Müxtəlif əməli yazılar (referat, təqdimat) yazır.<br>X-d. 4. 1.4. |

**İxtisarlar:**

Ə. – Ədəbiyyat

X-d. – Xarici dil

Az-t. – Azərbaycan tarixi

Riy. – Riyaziyyat

İnf. – İnformatika

Tex. – Texnologiya

T-i. – Təsviri incəsənət

## II. Təlim strategiyaları

Təlim strategiyaları - müəllimin təlim prosesində istifadə etdiyi forma, üsul və texnikaları əhatə edir. Bu vaxta qədər Azərbaycan pedaqoji ədəbiyyatında həmin anlayışdan istifadə edilmirdi. Lakin son vaxtlar təhsil islahatının həyata keçirildiyi bir dövrdə fənn kurikulumları hazırlanarkən təlim strategiyası anlayışına müraciət edilməyə başlanılmışdır.

Yeni kurrikulumlarda təlim strategiyaları anlayışının işlənməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması, ilk növbədə, əsas pedaqoji anlayışlardan biri kimi təhsilin müasir tələblər baxımından izahını tələb edir. Başqa sözlə, təhsilə təkcə nəticə, yaxud sadəcə proses kimi deyil, daha geniş məna çalarına malik ifadə tərzi kimi yanaşılması lazım gəlir. Xüsusən, təhsilin şəxsiyyətyönümlü xarakteri ona bir neçə mövqedən yanaşmağı tələb edir: təhsil dəyərdir, təhsil sistemdir, təhsil prosesdir, təhsil nəticədir.

Təhsilə özündə dili, mentaliteti, milli bacarıqları, adət-ənənələri ehtiva edən dəyər kimi baxılır. Bu dəyərlərin formalaşmasında şəxsiyyətin istiqamətləndirilməsi, mədəniyyətlilik, kollektivçililik, sistemlilik, bütövlük əsas aparıcı prinsiplər kimi çıxış edir.

Özünəməxsus sistemə malik olan təhsil pillələri ilə mövcuddur. Gözlənilən nəticələri ilə fərqlənən bu pillələr bir-birini tamamlayır və ardıcıl sıralanmaqla təhsilin ümumi sistemini təşkil edir. Ona görə də təhsilə bir sistem kimi baxılır. Bu zaman demokratikləşmə, humanistləşdirmə, differensasiya, fərdiləşmə, sosiallaşdırma, variativlilik və inkluzivlik aparıcı prinsiplər kimi əsas rol oynayır.

Təhsil insanın sosiallaşma prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnməsini davamlı bir fəaliyyət kimi əhatə etdiyindən ona həm də proses kimi yanaşılır. Onun didaktik əsasını isə təbiətə müvafiqlik, praktiklik, istiqamətlilik, variativlik, mərhələlilik, fərdi ehtiyacların nəzərə alınması və fasiləsizlik təşkil edir.

Təhsil, həmçinin, bütövlükdə müəllim və şagird fəaliyyətinin yekunu olduğundan ona nəticə kimi baxılır. Bütöv bir mərhələli prosesin sonu kimi dəyərləndirilir.

Yeni fənn kurrikulumlarında təlim strategiyaları aşağıdakı məsələləri əhatə edir:

- pedoqoji prosesin təşkili prinsipləri
- fənn üzrə təlimin planlaşdırılması
- təlimin təşkilində istifadə olunan forma və üsullar

## 2.1. Azərbaycan dili (dövlət dili kimi) təliminin təşkilinə verilən əsas tələblər

Təlim digər dillərdə aparılan məktəblərdə dövlət dili kimi Azərbaycan dilinin şagirdlərə öyrədilməsi milli maraqları əks etdirən vacib məsələ olmaqla mühüm əhəmiyyətə malikdir. Ona görə də digər millətlərə mənsub olan vətəndaşlara Azərbaycan dilinin öyrədilməsi, ilk növbədə, bu prosesdə istifadə edilən təlim üsullarının çevikliyi və effektivliyindən çox asılıdır. " Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları(kurikulumları)" sənədində təsbit olunmuş aşağıdakı prinsiplər bu dilin tədrisinin pedaqoji əsasını təşkil edir.

- Pedaqoji prosesin tamlığı.
- Təlimdə bərabər imkanların yaradılması.
- Şagirdyönümlülük.
- İnkişafyönümlülük.
- Fəaliyyətin stimullaşdırılması.
- Dəstəkləyici mühitin yaradılması.

Təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili tədrisinin təşkilində aşağıdakı metodik tələblər nəzərə alınır.

- Mövcud standartlar, təlim strategiyaları, resurslar və qiymətləndirmə sistemi nəzərə alınmaqla, tədris fəaliyyətinin perspektiv və cari planlaşdırılması.
- Azərbaycan dilinin interaktiv metodlarla öyrədilməsi.
- Kommunikativ təlim şəraitinin yaradılması, şagirdlərin iki-iki və qrup halında işləmələrinin təmin olunması.
- Şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması.

- Şagirdlərin Azərbaycan dilini öyrənməyə olan marağının izlənilməsi və inkişaf etdirilməsi.
- İKT və yardımçı texniki vasitələrdən istifadə olunması.
- Köməkçi didaktik vasitələrdən istifadə edilməsi.
- Nitq inkişafı üzrə nailiyyətlərin vaxtaşırı monitorinqi və qiymətləndirilməsi.

## 2.2. Azərbaycan dili (dövlət dili kimi) təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

Digər fənlərin tədrisində olduğu kimi, təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi prosesində humanist və demokratik prinsiplərə əsaslanan yeni təlim texnologiyalarının tətbiqi ən ciddi məqsədlərdən biri kimi qarşıda dayanır. Şagirdlərin təlim əməyini stimullaşdıran, onların öyrənməyə və həyati bacarıqlara yiyələnməyə marağını şərtləndirən fəal təlim prosesində aşağıdakı mərhələlər mühüm didaktik əhəmiyyət daşıyır.

- **Düşünməyə yönəltmə mərhələsi**
- **Dərketmə mərhələsi**
- **Düşünmə mərhələsi**

**Düşünməyə yönəltmə mərhələsi**

Bu mərhələdə şagirdlər öyrəndikləri bilikləri təhlil etməyə və araşdıracaqları mövzu ətrafında düşünməyə sövq edilir. Şagird, ilk olaraq, mövzu ilə əlaqədar biliklərinin səviyyəsini müəyyənləşdirir və bəzi hallarda bunlara yeni əlavələr edir.

**Dərketmə mərhələsi.** Bu mərhələdə şagirdlər yeni informasiya və ideyalarla təmasda olurlar. Əsas məsələ ondan ibarətdir ki, əvvəlki mərhələdə yaranmış fəallıq və maraq inkişaf etdirilir, şagirdlər yeni anlayışları müəyyən edib mənimsəmək üçün keçmiş və yeni biliklər arasında əlaqə yaradırlar.

**Düşünmə mərhələsi.** Bu mərhələdə şagirdlər yeni qazandıqları bilikləri möhkəmləndirməklə yanaşı, bir neçə mühüm məqsədə nail olmaq istiqamətində də fəaliyyət göstərirlər. Birincisi, şagirdlər yeni ideya və informasiyaları öz sözləri ilə ifadə etməyə çalışırlar. İkincisi, şagirdlər arasında canlı fikir mübadiləsi yaranır,

onlar öz ekspressiv (təsirli) söz ehtiyatını genişləndirməyə, həmçinin, digər şagirdlərin təsəvvürləri ilə tanış olmağa imkan tapırlar.

Azərbaycan dili təlimində şagirdlərin fəallığını, dərslərin maraqlı və məzmunlu olmasını qeyri-standart dərs formalarından (dərs-müzakirə, dərs-ekskursiya, dərs-oyun, dərs-seminar, dərs-səyahət, dərs-iclas və s.) istifadə yolu ilə təmin etmək mümkün olur. Bu dərslərdə müəllim və şagirdlərin fəaliyyəti qoyulmuş problemlərin həllinə yönəlir, sinifdə canlı və münbit təlim şəraiti yaranır. Belə dərslər, əsasən, motivasiya, problemin həlli, təqdim etmə, qiymətləndirmə mərhələlərindən ibarət təşkil olunur.

Qeyri-standart dərs formalarından istifadə aşağıdakı xüsusiyyətlər baxımından əhəmiyyətli hesab edilir:

- fəallığı stimullaşdırır;
- biliklərin müstəqil əldə edilməsinə və onların yaradıcı tətbiqinə şərait yaradır;
- problemin həllinə müstəqil və yaradıcı yanaşmağa geniş imkanlar açır;
- idraki müstəqilliyi təmin edir;
- şagirdlərdə əməkdaşlıq bacarığını gücləndirir.

Təlim qeyri-dildə olan məktəblərdə Azərbaycan dili dərsləri bir çox hallarda qruplarla iş formasında aparılır. Bu zaman aşağıdakı qaydalara istinad etmək tövsiyə olunur:

- Qrup üzvlərinin vəzifələrini və qrupun liderini düzgün müəyyənləşdirmək.
- Birgə fəaliyyəti təmin etmək.
- Bir-birinin fikrinə hörmətlə yanaşılması və müstəqil fikirlər söylənməsi üçün imkan yaratmaq.
- Mübahisəyə yol vermədən, sağlam rəqabət aparmaq.
- Problemin həllində kompromis yollar axtarmaq.
- Qrupun fəallığını təmin etmək.

Azərbaycan dili təlimində kollektiv iş, cütlərlə iş, fərdlərlə iş formalarından da istifadə olunması məqsədəmüvafiq hesab edilir.

Azərbaycan dilinin təlimi prosesində aşağıdakı interaktiv metodlardan istifadə olunması faydalı bilinir:

- Şaxələndirmə
- Beşliklər
- Konseptual cədvəl
- Venn diaqramı
- Metaforik düşünmə
- İNSERT
- Rollu oyunlar
- Diskussiya

**Şaxələndirmə.** Şaxələndirmə şagirdləri mövzu ilə bağlı sərbəst düşünməyə, axtarış aparmağa sövq edir. Onların idraki fəallığına imkan yaradır. Bu üsuldan həmçinin öyrənilənləri yekunlaşdırmaq, yeni assosiasiyaların meydana gəlməsini stimullaşdırmaq və ya yeni təsəvvürlərin qrafik təsvirini vermək üçün də istifadə olunur.

Şaxələnmə üsulundan istifadə zamanı aşağıdakı tələblər gözlənilir.

- Əsas sözün və ya ifadənin kağızın, lövhənin və ya başqa müstəvinin ortasında yazılması.
- Seçilmiş mövzu ilə bağlı yada düşən söz və ya ifadələrin yazılması.
- Söz və ifadələr yazıldıqca onların arasında əlaqələrin xətlərlə ifadə olunması.
- Verilmiş vaxt bitənə qədər mümkün qədər daha çox söz və ifadələrin yazılması.

**Beşliklər.** Beşliklər ən mütəhərrik təlim üsullarından hesab edilir. Ondan istifadə olunması Azərbaycan dilinin nitq vahidləri ilə yaxından tanış olmağa imkan yaradır. Şagirdlərin dil öyrənməyə marağını gücləndirir.

Beşliklərdən istifadə zamanı verilmiş tapşırığı beş sətirdə icra etmək tələb olunur. Tələb aşağıdakı şərtlərə əsasən yerinə yetirilir.

1. İlk sətir mövzunun bir sözlə ifadəsidir.
2. İkinci sətir mövzunun ikisözlü təsviridir.
3. Üçüncü sətir üç sözlə mövzu dairəsində hərəkəti ifadə edir.

4. Dördüncü sətir mövzuya olan münasibəti göstərən dördsözlü ifadədir.
5. Axırıncı sətir isə mövzunun mahiyyətini ifadə edən bir sözdən ibarət sinonimdir.

***Nümunə:***

*çiçək*
*ətirli, qəşəng*
*sevilən, əzizlənən, bəzəyən*
*aləmə gözəllik bəxş edən*
*gül*

**Konseptual cədvəl.** Konseptual cədvəldən istifadə zamanı üç və ya daha çox məsələ, yaxud cəhətin müqayisəsi nəzərdə tutulur. Cədvəlin sütunlarında müqayisə ediləcək obyektlər, sətirlərində isə onların müqayisə olunacaq xüsusiyyətləri və özəllikləri yerləşdirilir. Nitq inkişafı üzrə dərslərdə bu metoda çox müraciət olunur. Müxtəlif növ yazı işlərinin ( ifadə, inşa və s.) aparılması zamanı ondan istifadə edilir. Məsələn, "Mağazada" mövzusunda nitq inkişafı üzrə dərs zamanı aşağıdakı cədvəldən istifadə etmək olar.

| Söz | Tərcüməsi | Sinonim | Antonim | Omonim |
|---|---|---|---|---|
| gözəl | красивый | qəşəng,<br>göyçək,<br>yaraşıqlı | Çirkin | |
| kök | морковь,<br>корень,<br>толстый | | | kök- tərəvəz<br>kök- nəsil<br>kök- gombul |
| Sarı | желтый,<br>завяжи,<br>К (предлог) | bağla,<br>tərəf, doğru | aç | sarı- rəng,<br>sarı-fel,<br>sarı-qoşma |

**Venn diaqramı.** Venn diaqramı nisbətən kəsişən iki və ya daha artıq çevrə üzərində qurulur. Çevrələrin üst-üstə düşdüyü hissədə nə isə yazmaq üçün kifayət qədər yer olur. Həmin yerdə fərqli, yaxud ümumi cəhətlər qeyd edilir. Məsələn, şagirdlər IV sinifdə "Mənsubiyyət şəkilçilərini" öyrənirlər və bu mövzunu rus dilində "Личные местоимения в родительном падеже" mövzusu ilə müqayisə etməli olurlar. Bu zaman müəllimin aşağıdakı məzmunda Venn diaqramına müraciət etməsi problemin həllini asanlaşdırır.




**Metaforik düşünmə.** Metaforik düşünmə interaktiv metodlardan biri kimi fikirləşməyə, müqayisələr aparmağa, müəyyən anlayışların oxşar cəhətlərini meydana çıxarmağa imkan verir. Azərbaycan dili fənni üzrə fəndaxili və fənlərarası inteqrasiya imkanlarının reallaşmasına şərait yaradır. Xüsusən dövlət dili kimi Azərbaycan dilinin ana dili ilə müqayisədə mənimsənilməsinin səmərəliliyini artırır.




**İNSERT.** İNSERT üsulundan dərsin dərketmə mərhələsində istifadə olunur. Oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan yaradır. Fəal dərketməni inkişaf etdirir. Bu üsuldan istifadə iki mərhələdə həyata keçirilir.

Birinci, üzərində əməliyyat aparılacaq mətn, istifadə olunacaq zəruri işarələr ( bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən olunur. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər. Məsələn,

| ✓ | Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama işarəsi (v) qoyun. |
|---|---|
| – | Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi rədd edirsə, yaxud ona ziddirsə, mənfi (-) işarəsi qoyun. |
| + | Müsbət (+) işarəsi o zaman qoyulur ki, rast gəldiyiniz məlumatın bir qismi sizin üçün təzə olsun. |
| ? | Qarışıq, yaxud haqqında əlavə məlumat almaq istədiyiniz məsələ varsa, qarşısına sual (?) işarəsi qoyun. |

Məsələn:

"Aytənin rəfiqəsi Nigar ad günündə ona nə hədiyyə olunduğunu soruşdu. Aytən bağışlanan hədiyyələri sadaladı: gəlincik, kitab, qələm və pişik.

Nigar təəccübləndi:"Axı pişik nə deyil, kimdir."

Aytən cavab verdi: "Azərbaycan dilində heyvanlar nə? sualına cavab verir."

Şagirdlərə izah edilir ki, hər sətrin, yaxud hər fikrin qarşısında işarələr qoymaq lazım deyil. Sadəcə, məlumata ümumi münasibət bildirmək lazımdır.

**Rollu oyunlar.** Rollu oyunlar təlim qeyri-dildə olan məktəblərdə Azərbaycan dili tədrisinin səmərəliliyini yüksəldir. Şagirdlərə özləri və ətrafdakılar haqqında şifahi məlumat əldə etməyə, danışıq səslərini, sözləri düzgün tələffüz etməyə imkan verir. İfadəli nitq bacarıqlarının formalaşması və inkişafına təsir göstərir.

**Diskussiya.** Təlim diskussiyası konkret problem üzrə fikirləri mübadilə etməkdir. Bu metodun köməyi ilə şagirdlər Azərbaycan dili üzrə yeni biliklərə yiyələnir, öz mövqelərini müdafiə edirlər. Təlim diskussiyasının başlıca funksiyası

şagirdlərin idraki marağını stimullaşdırmaqdır. O həm də təhsilverici, inkişafetdirici, tərbiyəedici və nəzarətedici-təshihedici kimi köməkçi funksiyaları da yerinə yetirir.

Təlim diskussiyasının səmərəliliyinin mühüm şərtlərindən biri onun həm məzmun, həm də forma cəhətdən əsaslı şəkildə hazırlanmasıdır. Məzmun etibarilə şagirdlər qarşıdakı diskussiya ilə bağlı lazım olan biliklər əldə etməlidirlər. Forma cəhətdən isə şagirdlər biliklərini ifadə etmək qaydalarına hazırlaşmalıdırlar. Onlar müəyyən biliklərə malik olmayanda aparılan diskussiya mənasız və məzmunsuz olur. Şagirdlər öz fikirlərini ifadə etmək bacarığına malik deyilsə, opponentlərini inandıra bilmirsə, onda diskussiya cəlbedici xarakter daşımır.

Diskussiyalar məlum olan materialın məzmununu zənginləşdirməkdə, onu qaydaya salmaqda və möhkəmləndirməkdə şagirdlərə kömək edir. Müəllim bu üsuldan istifadə etməklə şagirdlərinin biliklərinin möhkəmliyi və dərinliyi haqqında etibarlı məlumat alır.

Şagirdlər diskussiyalarda iştirak etməklə kommunikativ, nitq bacarıqlarını inkişaf etdirmək imkanı qazanırlar.

### 2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

İllik planlaşdırmanın yaradılması müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi göstərilir. Eyni zamanda, hər bölməyə ayrılacaq vaxtı göstərilir. Fənnin planlaşdırılması ardıcıllığı aşağıdakı kimidir:

1. Tədris ediləcək tədris vahidlərini məzmun standartlarına əsasən müəyyən etmək;

2. Tədris vahidlərinin ardıcıllıq prinsiplərini müəyyənləşdirmək (Tədris vahidlərinin ardıcıllıqla müəyyənləşdirilməsi dedikdə, məzmunun ardıcıllığı (asandan çətinə doğru), xronoloji ardıcıllıq (zaman ardıcıllığı), məntiqi ardıcıllıq (əvvəlcə, o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır) nəzərdə tutulur).

3. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq (Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı nəzərə alınır. Hər tədris vahidinə onun əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt ayrılır.)

4. Hər bir halda şagird maraqlarını nəzərə almaq.

İllik planlaşdırma apararkən müəllim aşağıdakı sənədlərə istinad etməlidir:

• Məzmun standartları.

• Qiymətləndirmə standartları.

• Tədris planı.

• Dərslik (İstifadə olunacaq mətnlər və digər materiallar).

• Müəllim üçün vəsait.

Təqvim planı tərtib edilərkən dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilir. Hər tədris vahidi və mövzu vasitəsilə reallaşdırılacaq məzmun standartları (alt-standartlar) seçilir, istifadə olunacaq mənbələr (resurslar) müəyyən edilir, hər mövzu üçün ayrılmış vaxt qeyd olunur.

5-ci sinif üzrə Azərbaycan dilindən illik planlaşdırma əsasında müəllimin fərdi olaraq gündəlik və ya həftəlik dərs planlaşdırmasına nümunə:

Azərbaycan dili

| **Standart** | **Mövzular** | **İnteqrasiya** | **Resuslar** | **Saat** |
|---|---|---|---|---|
| 2.1.1.<br>3.1.1. | -Birinci dərs.<br>Mətn üzrə iş. | Ə. 1.1.2.,<br>1.2.4.<br>X-d. 3.1.2. | Dərslik, paylayıcı materiallar, lüğətlər, proyektor və s. | 1 |
| 2.1.3.<br>3.1.3. | Sevimli məktəb.<br>Mətn üzrə iş. | Ə. 2.1.2. | Dərslik, paylayıcı materiallar, lüğətlər, proyektor və s. | 1 |
| 1.1.2.<br>3.1.1.<br>4.1.3. | -Müəllimin sevinci<br>Mətn üzrə iş | A-t. 2.1.2. | Dərslik, iş vərəqləri, kompyuter, lüğətlər, proyektor və s. | 1 |
| 3.1.1.<br>3.1.2.<br>3.1.3. | Sevirik səni biz<br>Mətn üzrə iş | Ə. 1.1.2.,<br>1.2.4.<br>X-d. 3.1.3. | Dərslik, paylayıcı materiallar, lüğətlər, proyektor və s. | 1 |
| 3.1.1.<br>3.1.2.<br>4.1.2. | -Əsl Həqiqət<br>Mətn üzrə iş | Ə. 3.1.4. | Dərslik, iş vərəqləri, kompyuter, lüğətlər, proyektor və s. | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 2.1.2.<br>2.1.4.<br>3.1.3. | Yoldaşlıq köməyi<br>Mətn üzrə iş | Ə. 2.1.2. | Dərslik, paylayıcı materiallar, kompyuter, lüğətlər, proyektor və s. | 1 |
| 3.1.1.<br>3.1.2.<br>4.1.3. | -Ay Aman!..Sel apardı!..<br>Mətn üzrə iş | Ə. 1.1.1., 2.1.1. | Dərslik, paylayıcı materiallar, kompyuter, lüğətlər, proyektor və s. | 1 |
| 2.1.2.<br>3.1.3.<br>4.1.2. | Qız məktəbində.<br>Mətn üzrə iş | Ə. 2.1.2. | Dərslik, paylayıcı materiallar, lüğətlər, proyektor və s. | 1 |

## Dərs planı nümunələri

### I sinif

**Standart.** 1.1.3;.2.1.1; .2.2.1
**Mövzü:** “Meyvələr”
**Məqsəd:**

- Meyvələrin adlarını öyrənmək.
- Öyrəndiyi yeni sözləri düzgün tələffüz etmək və sual vermək bacarığı formalaşdırmaq

**İnteqrasiya: T-i.** 1.1.3; **A-d.** 1.2.6; **Mus.** 1.1.3; **H-b.** 1.3.3.
**İş forması**: qrup işi, kollektivlə iş
**İş üsulu:** müzakirə, beyin həmləsi
**Resurslar**: meyvə şəkilləri, meyvə ikebanası (bəzədilmiş səbət), dərslik, işçi vərəqləri, markerlər.
**Dərsin gedişi:**

**Motivasiya.**

Löhvədən meyvə ağaclarının şəkli çəkilmiş plakat asılır və müəllim şagirdlərin fikrini plakata yönəldir. Suallar vasitəsilə “meyvə” sözü alındıqdan sonra” Meyvələrin xeyri nədir?” sualı verilir.
Tədqiqat sualı: Şəkildə gördüyünüz meyvələri necə adlandırarsınız? Onların bizim üçün nə kimi xeyri var?
**Məlumatın mübadiləsi və müzakirəsi.**
Şagirdlər iki qrupa bölünür. Qruplara meyvə şəkilləri paylanır. Birinci qrupa meyvələrin əlamətləri, ikinci qrupa meyvədən hazırlanan məhsullar haqqında fikir söyləmək tapşırılır. Hər iki qrup tədqiqatın nəticələrini təqdim edir.. Müəllim nəticələri ümumiləşdirir. Ümumiləşdirmə zamanı meyvələrin adı, rəngi, forması təkrarlanır və xeyri haqqında məlumat genişləndirilir.
**Qiymətləndirmə.** Qrupların fəaliyyəti rəğbətləndirmə yolu ilə qiymətləndirilir.
**Ev tapşırığı.** Meyvə şəkli çəkmək.

### III sinif

**Standart:** 2.2.1; 2.2.2; 2.2.3.

**Mövzu:** “Payız”
**Məqsəd:**
Payız fəsli haqqında məlumat vermək
Düzgün tələffüz , yazı , müqayisə etmək bacarığı formalaşdırmaq
**İnteqrasiya:** **T-i.** 1.1.1; 2.2.1.; **A-d.** 1.2.5; 2.2.6; 4.1.8.
**İş forması:** qrup işi, kollektivə iş
**İş üsulu:** müzakirə, beyin həmləsi
**Təchizat:** dərslik, plakatlar, işçi vərəqləri və markerlər
**Dərsin gedişi:**

**Motivasiya**
Sinfə rəngli yarpaqlar gətirilir və şagirdlərə sual verilir: “Yarpaqların rəngləri nə üçun müxtəlifdir?” Düzgün cavab alındıqdan sonra payız fəsli ilə əlaqədar yeni sözlərin tərcüməsi lövhədən asılır. ”Payız fəslinin daha hansı əlamətləri var?”sualı verilir.
**Məlumatın mübadiləsi və müzakirəsi**
Şagirdlər iki qrupa bölünür və onlara işçi vərəqləri təqdim olunur. Birinci qrupa şəkillərə əsasən payiz və yaz fəsillərinin əlamətlərini, ikinci qrupa fəsillərin müsbət və mənfi cəhətlərini yazmaq tapşırılır. Cavablar qrup liderləri tərəfindən təqdim edilir. Müəllim şagirdlərin fikirlərini ümumiləşdirir və fərdi şəkildə “Qızıl payız” mövzusunda esse yazmağı tapşırır. Esselər oxunur.
**Qiymətləndirmə.** Meyar cədvəlinə əsasən şagirdlər qiymətləndirilir.
**Ev tapşırığı.** Payız yarpaqlarından ikebana (bəzədilmiş səbət) düzəltmək.

## VI sinif

**Standart :** 1.1.1., 3.1.1.

**Mövzu:** İsmin halları

**İnteqrasiya:** X-d. 3.1.4., Az-t. 3.1.4.

**Dərsin məqsədi:**

1) İsmin halları haqqında ümumi məlumat almaq, sözləri isimin hallarına görə fərqləndirmək;

2) İsmin hallarını düzgün işlətməklə mətn qurmaq və onu redaktə etmək bacarığını formalaşdırmaq.

**İş üsulu:** beyin həmləsi, müzakirə, mühazirə.

**İş forması:** kollektiv və qrup işi.

**Resurs:** dərslik , proyektor, kompyuter, iş vərəqləri.

**Dərsin gedişi:**

**Motivasiya**

Şagirdlər proyektorda verilən cümlələri oxuyur və hansı səhvləri müşahidə etdiklərini söyləyirlər.

*1. Leyla anası həkimdir.*

*2. Həkim xəstə baxdı.*

*3. Səməd həkim tanıdı.*

*4. Poliklinika xəstə az idi.*

*5. O, xəstə soruşdu.*

Şagirdlər fikirlərini söylədikdən sonra müəllimin köməyi ilə nümunələrdəki səhvlər müəyyənləşdirilir və düzgün variant ekrana gətirilir.

1. Leyla*nın* anası həkimdir.

2. Həkim xəstə*yə* baxdı.

3. Səməd həkim*i* tanıdı.

4. Poliklinika*da* xəstə az idi.

**Tədqiqat sualı:**

*Azərbaycan dilində ismin hansı halları var və sözlər ismin hallarına görə necə dəyişir?*

**Tədqiqatın aparılması.**

Öncə, müəllim ismin halları haqqında məlumat verir. Eyni zamanda, həmin məlumatlar proyektorda göstərilir.

"Göründüyü kimi, isimlər cümlədə asılı olduğu sözün tələbi ilə formaca dəyişir, yəni bu zaman müəyyən qrammatik şəkilçilər qəbul edir.

İsimlərin əlaqəyə girdiyi sözlərin tələbi ilə dəyişməsi *hallanma* adlanır. Dilimizdə ismin altı halı var və hər bir hal özünəməxsus sualları, xüsusiyyətləri ilə seçilir.

Siz rus dili dərslərinizdə də hallanma (падеж) haqqında məlumat almısınız. Rus dilində də ismin altı halı var:

1. Именительный

2. Родительный

3. Дательный

4. Винительный

5. Творительный

6. Предложный

Azərbaycan dilində isə belədir:

| | Sualları: | Şəkilçiləri: |
|---|---|---|
| 1. Adlıq hal | kim? nə? hara? | - - - - - - - |
| 2. Yiyəlik hal | kimin? nəyin? haranın? | -ın$^{4}$ |
| 3. Yönlük hal | kimə? nəyə? haraya? | -a$^{2}$ |
| 4. Təsirlik hal | kimi? nəyi? haranı? | -ı$^{4}$ |
| 5. Yerlik hal | kimdə? nədə? harada? | -da$^{2}$ |
| 6. Çıxışlıq hal | kimdən? nədən? haradan? | -dan$^{2”}$ |

Proyektorda bəzi alınma sözlərin Azərbaycan dilində necə işləndiyi göstərilir və kollektiv şəkildə cümlədə işlədərək dəyişmə xüsusiyyətlərinə diqqət yetirilir.

| | |
|---|---|
| *Почта- poçt* | *Витрина- vitrin* |
| *Конфета- konfet* | *Кассета- kaset* |
| *Котлета- kotlet* | *Контора- kontor* |
| *Схема- sxem* | *Лента- lent* |
| *Машина- maşın* | *Аптека- aptek* |
| *Газета- qəzet* | *Резина- rezin* |
| *Анкета- anket* | *Тонна- ton* |
| *Группа- qrup* | *Фабрика- fabrik* |

Sonra müəllim tədqiqatı davam etdirmək məqsədilə şagirdlərə qruplar şəklində oturmağı tapşırır və hər qrupa ayrılıqda tapşırıq verir.

**I qrup**

*Maşın* və *dəniz* sözlərini cümlədə işlədin və necə dəyişdiyini izah edin.

**II qrup**

Verilmiş söz birləşmələrini cümlədə işlədin və birinci tərəfin necə dəyişdiyini izah edin.

*Ağacı əkmək, ağaca çıxmaq, ağacdan enmək, ağacda oturmaq, ağacın yarpaqları*

**III qrup**

*Baş, yanaq, çənə, qol, sinə, kürək, bel, diz, daban*

**Məlumatın mübadiləsi**

Şagirdlər cümlələri qeyd etdikləri flipçatları təqdim edirlər.

**Məlumatın müzakirəsi**

Müəllimin köməyi ilə şagirdlər verilmiş tapşırıqları müzakirə edirlər.

**Nəticə**

Şagirdlər:

1) İsmin halları haqqında məlumatları var, sözləri ismin hallarına görə fərqləndirirlər;

2) İsmin hallarını düzgün işlətməklə mətn qurur və onu redaktə etmək bacarıqlarını nümayiş etdirirlər.

**Yaradıcı tətbiqetmə**

Şagirdlərə payız haqqında mətn hazırlamaq, isimləri seçib hansı halda olduğunu göstərmək tapşırılıq.

**Qiymətləndirmə**

Şagirdlər müəyyənləşdirilmiş meyarlara əsasən qiymətləndirilir.

## VI sinif

**Standartlar:** 2.1.3., 4.1.1.

**Mövzu:** “Müqəddəs adətlər” şeiri

**İnterasiya**: Ə. 3.1.1., 1.1.2., 1.2.4., X-d.3.1.2.

**Məqsəd:**

*Şagirdlərin adət-ənənələr haqqında məlumata yiyələnməsi, bəyəndikləri adətlər haqqında fikirlərini bildirmək, milli və digər xalqların adətlərini fərqləndirmək bacarığına yiyələnmək.*

**İş üsulu:** klaster, beyin həmləsi, müzakirə

**İş forması: kollektiv və qrup işi**

**Dərsin mərhələləri:**

**Motivasiya**

Şagirdlərə belə bir şəkil təqdim edilir.




Adət-ənənəni qanun hesab etmək olarmı?

Mülahizələr dinlənilir və lövhəyə qeyd edilir.

**Tədqiqat sualı:**

*Adət-ənənələr xalqı səciyyələndirə bilərmi?*

*Azərbaycan xalqının qədim adət-ənənələri günümüzə qədər gəlib çatıbmı?*

*Əgər hər hansı bir xalqın adət-ənənəsi olmasa idi, nə baş verərdi?*

Lüğət üzərində iş aparılır, sözlərin mənaları izah edilir, sözlərlə söz birləşməsi və cümlə qurmaq tapşırılır. Sonra "Müqəddəs Adətlər" şeirinin oxusu üzərində iş aparılır.

Proyektorda aşağıdakı tapşırıq göstərilir və kollektiv şəkildə yerinə yetirilir.
Azərbaycan xalqına xas olan müqəddəs adətləri seçin:

1) Qonaqpərvərlik
2) Böyüyə hörmət
3) İldə bir dəfə valideynlərə baş çəkmək
4) Ayağını mizin üstünə qoyub televizora baxmaq
5) Salamlaşarkən iki əli birləşdirib baş əymək
6) Hər gün saat 12-də südlə çay içmək
7) Ad günündə hədiyyənin əvəzinə pul çeki vermək
8) Din xadimlərinin papaqlarından hörüklərin sallanması
9) Toy ərəfəsində gəlinin əlinə xına yaxmaq

Şagirdlər qrup halında birləşirlər və flipçatlar paylanır.

Hər qrupa bir neçə adət-ənənəmiz haqqında bildiklərini yazmaq tapşırılır. Şagirdlərə qruplararası əməkdaşlıq etmək də tapşırılır. Beləliklə, fikirlərin təkrarlanmasının qarşısı alınmış olur. Hər qrup konkret olaraq, hansı adətlər haqqında yazacağını müəyyənləşdirir. Reqlament elan olunur.

**Məlumatın mübadiləsi**

Vaxt bitdikdən sonra qruplar işlərini təqdim edirlər.

**Məlumatın müzakirəsi**

Bu mərhələdə qrupların işləri müzakirə olunur. Müəllimin də iştirakı ilə müxtəlif fikirlər irəli sürülür. Eyni zamanda, proyektorda məlumat verilən adət-ənənəyə aid şəkillər görünür (bu şəkillər əvvəlcədən müəllim tərəfindən planlı olaraq hazırlanmışdır)

**Nəticə**

Şagirdlər:

*Adət-ənənələr xalqı səciyyələndirə bildiyini müəyyənləşdirir,*

*Azərbaycan xalqının günümüzə qədər gəlib çatan qədim adət-ənənələrimi və onların xüsusiyyətlərini bildiyini nümayiş etdirir. Onlar qeyd edirlər ki, əgər hər hansı bir xalqın adət-ənənəsi olmasa idi, o xalqın tarixi haqqında olduqca az şey demək olardı, həmçinin, xalqı xarakterizə etmək üçün heç bir dəlil olmazdı.*

**Yaradıcı tədbiqetmə**

Şagirdlərə bizim və digər bir neçə xalqın adətləri haqqında araşdırma aparıb təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə**

Meyarlar üzrə qiymətləndirmə aparılır.

## VII sinif

**Standart:** 1.1.2., 4.1.1., 4.1.2.

**Mövzu:** Bayraq ölkənin simvoludur.

**İnteqrasiya:** X-d.3.1.3., 4.1.1.

**Dərsin məqsədi:**

*Bayraq haqqında informasiya əldə etmək*

*Bayrağın ölkənin sinbolu olduğunu anlama*

*Mətn hazırlamaq.*

**İş üsulu:** beyin həmləsi, auksion

**İş forması:** fərdi və kollektiv iş

**Resurs:** dərslik, proyektor, kompyuter, musiqi

**Dərsin gedişi:**

**Motivasiya**

Lövhədə ölkələrin bayraqlarından ibarət görüntü nümayiş etdirilir. Orada Azərbaycan, Türkiyə, Pakistan, Sinqapur, Tunis, Əlcəzair, ABŞ, Böyük Britaniya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Yaponiya, Almaniyanın bayraqları vardır.

Şagirdlər bayraqlara baxaraq onların aid olduqları ölkələrin adlarını sadalayırlar və yeni dərsin mövzusu müəyyənləşdirilir.

**Tədqiqat sualı:**

*Bayraqlar və onların yaranması hansı zərurətdən meydana gəlir?*

*Bayrağın ölkənin simbolu olduğunu necə başa düşürsünüz?*

**Tədqiqatın aparılması**

Şagirdlər mətni oxuyur, onlara tanış olmayan sözləri seçir. Lüğətdə verilən sözlər üzərində iş aparılır, mənaları izah edilır.

Mətn əsasında aşağıdakı sualları şagirdlər cavablandırırlar:

1. Bilirsinizmi bayraq nə vaxt yaranmışdır?
   (b.e.ə. II-III yüzillikdə)
2. Deməli, bayraq çox qədim zamanlardan yaranmışdır. Sizcə, hansı zərurətdən bu ola bilərdi?

(Əvvəllər gəmilərin sahilə yan aldığını, sonralar isə gəmilərin hansı ölkəyə məxsus olduğunu bildirmək üçün)

3. Gəlin bayraq rəsmlərinə bir də nəzər salaq.
   Bunlardan hansılar türk dövlətlərini təmsil edir?
   (Azərbaycan, Türkiyə.... )
4. Bəs bayrağın məhz türk dövlətini təmsil etdiyini nələrdən bilirik?
   ( boz qurd, qartal, aypara və s. şəkillərin olmasından)

Sonra hər şagirdə Azərbacanın bayrağı haqqında yazmaq tapşırılır. Müəllim istiqamətləndirmək məqsədi ilə sinfə aşağıdakı suallarla müraciət edir. Reqlament elan olunur.

*Bayrağımızın yaranması haqqında nə bilirsiniz?*

*Bayraq günü nə vaxt qeyd olunur?*

*Bayrağımızın üzərindəki rənglər, ay və ulduz nəyin simvollarıdır?*

**Məlumatın mübadiəsi**

Vaxt bitdikdən sonra şagirdlər qeyd etdiklərini oxuyurlar.

**Məlumatın müzakirəsi**

Hər şagirdə digərinin fikrinə münasibət bildirmək, səhvlərini müəyyənləşdirmək hüququ veirlir. Yeri gəldikcə, müəllim də bəzi əlavələr edir və bayraq haqqında hazırladığı paylayıcı materialı şagirdlərə verir.

**Nəticə**

*Şagirdlər:*

*Bayraqlar və onların yaranmasının hansı zərurətdən meydana gəldiyini izah edirlər.*
*Bayrağın ölkənin simbolu olduğunu müəyyənləşdirir, Azərbaycan bayrağının rənglərinin, onun üzərindəki ay və ulduzun mənasını müəyyənləşdirirlər.*

**Yaradıcı tətbiqetmə**

Şagirdlərə müxtəlif ölkələrin bayraqlarındakı rəmzlər haqqında məlumatı əks etdirən mətn hazırlamaq tapşırılır.

**VIII sinif**

**Standart:** 1.1.2; 2.1.4; 4.1.1.

**Mövzu**: Şair və yazıçılarımız haqqında

**İnteqrasiya:** X-d.2.1.1., 3.1.2.

**Məqsəd:**

*Şagirdləri şair və yazıçılarımız haqqında məlumatlandırmaq, "Şair və yazıçıların xalqın mənəviyyatına təsiri" mövzusuna münasibət bildirmək.*

**İş üsulu:** anlayışın çıxarılması, müzakirə

**İş forması:** kollektiv və qrup işi

Resurs: dərslik, proyektor, paylayıcı material və s.

**Dərsin mərhələləri.**

**Motivasiya**

Anlayışın çıxarılması. Şagirdlə verilmiş şəkillərdəki şəxslərin ortaq xüsusiyyətini tapmaq tapşırılır. Fərziyyələr lövhədə qeyd olunur və yeni dərsin adı müəyyənləşdirilir.



**Tədqiqat sualı**

1. Şair və yazıçılar vətənə necə xidmət edirlər?
2. Onlar öz əsərləri ilə tarix yarada bilərlərmi?
3. Onların gördüyü işi vətənə xidmət hesab etmək olarmı?

**Tədqiqatın aparılması**

Şagirdlər qruplara bölünür.

(Bu tapşırıqların yerinə yetirilməsi şagirdlərə 2 həftə əvvəl tapşırılmışdı. Onlar tədqiqat üçün kitabxanalara, muzeylərə gedə bilər, internetdən istifadə edə bilərdilər).

**“Xəmsə” qrupu**

Nizaminin həyat və yaradıcılığı haqqında təqdimat hazırlayın.

**“Şəbi- hicran” qrupu**

Məhəmməd Füzulinin həyatı və yaradıcılığı haqqında təqdimat hazırlayın.

**“Hophop” qrupu**

Sabirin həyat və yaradıcılığı haqqında məlumat toplayın və təqdimat hazırlayın.

**“Küləklər” qrupu**

Mikayıl Müşfiq haqqında təqdimat hazırlayın

**Məlumat mübadiləsi (**Bu, şagirdlərə verilən müddət bitəndən sonra aparılır.): Təqdimatlar dinlənilir.

**Məlumatın müzakirəsi**

Şair və yazıçıların yaradıcıllığı. Onların xalqın mənəviyyatına necə təsir etdiyi barədə müzakirə aparılır.

**Nəticə**

Şagirdlər:

*Şair və yazıçılarımızdan bir neçəsi ilə tanış olurlar;"Şair və yazıçıların xalqın mənəviyyatına təsiri" mövzusuna münasibət bildirilər.*

**Qiymətləndirmə**

Şagirdlər meyar cədvəliqiymətləndilir.

## 2.4. Azərbaycan dili (dövlət dili kimi) fənninin məzmun standartlarının şərhi[1]

| | I sinif | |
|---|---|---|
| **Standart** | **Şərh** | **Açar sözlər** |
| 1.1.1. Sadə şifahi göstərişləri təkrarlayır və onlara əməl edir. | Şifahi nitqi inkişaf etdirmək məqsədilə sadə şifahi göstərişlərin təkrarlanması və onlara əməl edilməsi. | Şifahi nitq, şifahi göstəriş, şifahi göstərişləri təkrarlamaq |
| 1.1.2.Aydınlaşdırmaq məqsədilə suallar verir. | Dinlənən mətnin məzmunu və ya ona aydın olmayan məqamları aydınlaşdırmaq məqsədilə müəyyən sualların verilməsi. | Mətnin məzmunu, aydınlaşdırmaq məqsədilə, aydın olmayan məqamlar |
| 1.1.3. Adını eşitdiyi əşya və hadisəni şəkildə göstərir. | Adını eşitdiyi əşya və ya hadisənin təsəvvürdə canlandırılması, mənasının müəyyənləşdirildiyini göstərmək məqsədilə onların şəkildə göstərilməsi. | Adını eşitdiyi əşya, təsəvvüründə canlandırmaq, müəyyən etmək |
| 2.1.1. Öyrəndiyi sözün mənasını izah edir. | Tanış olan yeni sözlərin mənimsənilməsi, onlara yaxınmənalı və ya əksmənalı söz demək və s. yolla onların mənasının izah edilməsi. | Yeni söz, yaxınmənalı söz, əksmənalı söz |
| 2.1.2. Öyrəndiyi sözlərdən birləşmə və cümlələr qurur | Öyrəndiyi yeni sözlərin mənasını, işlənmə məqamlarını müəyyənləşdirə bildiyini nümayiş etdirmək məqsədilə onlardan istifadə etməklə söz birləşməsi və cümlələrin qurulması. | Yeni sözlərin mənası, sözlərin işlənmə məqamı, söz birləşməsi, cümlə |
| 2.2.1. Müşahidə etdiyi əşya və hadisələri adlandırır | Müşahidə edilən əşya və hadisələrin fərqləndirilməsi, həmin anlayışların hansı sözlərlə ifadə edildiyini bilməsini nümayiş etdirmək məqsədilə onların adlandırılması. | Müşahidə etmək, əşya, hadisə, fərqləndirmək, nümayiş etdirmək |
| 2.2.2. Müşahidə etdiyi əşya və hadisələri sadə formada təsvir edir | Müşahidə etdiyi əşya və hadisələrin fərqləndirilməsi, onların özünəməxsus xüsusiyyətlərini göstərməklə sadə formada təsvir edilməsi. | Əşya və hadisələr, özünəməxsus xüsusiyyətlər, sadə forma |
| 2.2.3. Özü,ailəsi,məktəb və yoldaşları haqqında sadə dioloqlar qurur. | Dioloji nitqin mahiyyətini və dioloq qurmaq texnikasının müəyyənləşdirilməsi, özü, ailəsi, məktəb və yoldaşları haqqında sadə dioloqların qurulması. | Dioloji nitqin mahiyyətini, dioloq qurmaq texnikası, sadə dioloqlar |
| | **II sinif** | |

[1] **Məzmun standartalrının şərhinə aid verilmiş izahlar və aşar sözlər ancaq tövsiyə xarakteri daşıyır. Siniflər üzrə şagirdlərin inkişaf səviyyəsinə və marağına uyğun olaraq müvafiq dəyişikliklər və əlavələr etməklə onlara yaradıcı yanaşmaq məqsədəuyğun hesab edilir.**

| | | |
|---|---|---|
| | **Dinləyib – anlama** | |
| 1. 1.1. Müraciətlərə uyğun sadə tapşırıqları icra edir. | Müraciətlərin nəzərdən keçirilməsi, onlara uyğun olaraq sadə tapşırıqların icra edilməsi. | Müraciət, sadə tapşırıq, sadə tapşırıqları icra emək |
| 1.1.2. Dinlədiyi kiçikhəcimli mətnlərdəki çətin sözləri müəyyənləşdirir. | Kiçikhəcmli mətnlərin lüğət tərkibinin müəyyənləşdirilməsi, onun üçün tələffüzü və ya anlaşılması çətin olan sözlərin seçilməsi. | Kiçikhəcimli mətnlər, lüğət tərkibi, tələffüzü və ya anlaşılması çətin olan sözlər |
| 1.1.3. Adını eşitdiyi əşya və hadisəni şəkildə göstərir. | Danışanın nitqində ad bildirən sözlərin fərqləndirilməsi, adını eşitdiyi əşya və hadisələrin mənasını anladığını nümayiş etdirmək məqsədilə onların şəkildə göstərilməsi. | Danışanın nitqi, ad bildirən sözlər, əşya və hadisələr |
| | **Danışma** | |
| 2.1.1. Verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir. | Orfoepiya qaydalarına əməl edilməsi. Sözlər və söz birləşmələrinin sait və samit səslərin düzgün tələffüz qaydalarına uyğun olaraq deyilməsi, eyni zamanda, vurğunu müəyyən edilməsi. | Orfoepiya qaydaları, Söz və söz birləşməsi, sait və samit səslər |
| 2.1.2. Kiçikhəcmli sadə cümlələri (sual, nəqli) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. | Cümlələrin məqsəd və intonasiyaya görə növünün, onların hansı məqsədlə işləndiyinin müəyyənləşdirilməsi, kiçikhəcmli sadə - sual və nəqli cümlələrin müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edilməsi. | Cümlənin məqsəd və intonasiyaya görə növü, sual cümləsi, nəqli cümlə, intonasiya |
| 2.2.1. Müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır. | Müşahidə etdiyi əşya və hadisələri fərqləndirə bildiyini göstərmək məqsədilə onların özünəməxsus xüsusiyyətlərinin nəzərə almaqla qruplaşdırılması. | Müşahidə etdiyi, əşya və hadisələri fərqləndirmək, |
| 2.2.2. Müşahidə etdiyi əşya və hadisələri birinci şəxsin**(mən)** dili ilə təsvir edir | Şəxslərin fərqləndirilməsi, müşahidə etdiyi əşya və hadisələrin xarakterizə edilməsi və onların birinci şəxsin**(mən)** dili ilə təsvir edilməsi. | Müşahidə etmək, əşya və hadisələr, birinci şəxsin**(mən)** dili |
| 2.2.3. Sadə cümlələrdən (nəqli və sual)istifadə etməklə kiçikhəcimli dialoqlar qurur. | Sadə cümlələrin məqsəd və intonasiyaya görə növlərinin- nəqli və sual cümlələrin fərqləndirilməsi və onlardan istifadə etməklə kiçikhəcmli dialoqların qurulması. | Sadə cümlə, sadə cümlələrin məqsəd və intonasiyaya görə növləri, nəqli və sual cümlələr, kiçikhəcmli dialoqlar |
| | **Oxu** | |
| 3.1.1. Hərfləri və sözləri, söz birləşmələri və cümlələri düzgün oxuyur. | Azərbaycan dilinin orfoepiya qaydalarına əməl edilməsi, hərfləriin adlarının müəyyənləşdirilməsi, sözlər, söz birləşmələrinin və cümlələrin düzgün tələffüz qaydalarını gözləməklə oxunması. | Orfoepiya qaydaları, hərf, söz, sözlər, söz birləşmələri və cümlələr |
| 3.1.2. Bir neçə cümlədən ibarət kiçik | Bir neçə cümlədən ibarət kiçikhəcmli mətnlərin oxunması, | Kiçikhəcmli mətnlər, cümlələr arasındakı |

| | | |
|---|---|---|
| mətnləri oxuyur və məzmununu izah edir. | cümlələr arasındakı məna əlaqəsinin və məntiqi ardıcıllığın müəyyən edilməsi, mətnin məzmununun müəyyənləşdirilməsi və izah edilməsi. | məna əlaqəsi, məntiqi ardıcıllıq |
| 3.1.3.Oxuduğu kiçikhəcimli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. | Kiçikhəcmli mətnlərin oxunması, yeni sözlərin seçilməsi, lüğətdən istifadə etməklə ana dilinə və ya ana dilində olan sözlərin Azərbaycan dilinə tərcümə edilməsi. | Kiçikhəcmli mətnlər, lüğətdən istifadə etmək, tərcümə etmək |
| | **Yazı** | |
| 4.1.1. Hərfləri və sözləri düzgün yazır. | Səslərin işarəsinin – hərflərin düzgün müəyənləşdirilməsi və onların, eyni zamanda, sözlərin yazıda düzgün ifadə edilməsi | Səslərin işarəsi, hərflər, sözlər, yazıda düzgün ifadə etmək, müəyənləşdirmək |
| 4.1.2. Verilmiş söz birləşmələri və cümlə nümunələrini düzgün yazır. | Verilmiş söz birləşmələri və cümlə nümunələrinin Azərbaycan dilinin orfoqrafiya qaydalarına əməl etməklə düzgün yazılması | Söz birləşmələri, cümlə, orfoqrafiya qaydaları |
| 4.1.3. Kiçikhəcimli mətnlər(verilmiş təsvirlərə əsasən)yazır | Verilmiş təsvirlərin müəyyənləşdirilməsi, sadə təhlil aparılması və onlara əsasən kiçikhəcimli mətnlər yazılması | sadə təhlil, kiçikhəcimli mətnlər, düzgün yazı qaydaları |
| | **III sinif** | |
| | | |
| 1.1.1. Müraciətlərə uyğun tapşırıqlara əməl edir. | Müraciətlərə uyğun verilmiş tapşırıqların nəzərdən keçirilməsi, onlara əməl düzgün edilməsi | Şərt, tapşırıq, nümayiş etdirmək |
| 1.1.2. Dinlədiyi sözləri və söz birləşmələrini cümlələrdən fərqləndirir. | Sözün bir, söz birləşməsinin iki və daha artıq leksik vahiddən ibarət olduğunun, cümlənin isə onlardan fərqli olaraq, bitmiş fikir ifadə etdiyinin müəyyənləşdirilməsi, dinlədiyi söz və söz birləşmələrinin cümlələrdən fərqləndirilməsi. | Leksik vahid, bitmiş fikir, söz birləşmələri |
| 1.1.3**.** Dinlədiyi mətni məzmununa uyğun adlandırır. | Dinlədiyi mətndəki fakt və hadisələrin seçilməsi, onun məzmununun müəyyənləşdirilməsi, buna əsaslanaraq mətnin adlandırılması | Fakt və hadisələr, mətnin məzmunu |
| | **Danışma** | |
| 2.1.1.Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. | Dilin orfoepik qaydalarına əməl edilməsi, verilmiş söz, söz birləşməsi və nitq etiketlərinin işlənmə məqamının müəyyənləşdirilməsi, onların düzgün tələffüz edilməsi, vurğudan yerində istifadə edilməsi. | Orfoepik qaydalar, söz birləşməsi, nitq etiketləri |
| 2.1.2. Sadə cümlələrdən(əmr,nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. | Sadə cümlələrin məqsəd və intonasiyaya görə növlərinin fərqləndirilməsi, nitq prosesində əmr və nida cümlələrinin rolunun müəyyənləşdirilməsi və onların müvafiq qaydalara uyğun | Cümlə, məqsəd və intonasiya, cümlənin növləri, əmr cümləsi, nida cümləsi, intonasiya |

| | | |
|---|---|---|
| | intonasiya ilə tələffüz edilməsi | |
| 2.2.1. Əşya və hadisələrin əlamətlə rini (kəmiyyət ,keyfiyyət, forma) təsvir edir. | Əşya və hadisələrin təxəyyüldə canlandırılması, fərqləndirilməsi, onların kəmiyyət, keyfiyyət, və forma cəhətdən təsvir edilməsi | Əşya və hadisələri, kəmiyyət, keyfiyyət, təsvir etmək |
| 2.2.2. Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin **(o)** dili ilə təsvir edir. | Şəxs anlayışının müəyyənləşdirilməsi, sözlərin şəxsə görə təsnif edilməsi, əşya və hadisələrin üçüncü şəxsin **(o)** dili ilə təsvir edilməsi. | Şəxs anlayışı, əşya və hadisələr, üçüncü şəxsin **(o)** dili |
| 2.2.3. Sadə cümlələrdən (nəqli,sual,əmr,nida) istifadə etməklə kiçikhəcimli dioloqlar qurur. | Nitq prosesində cümlənin məqsəd və intonasiyaya görə növlərinin yerində işlədilməsi, nəqli, sual, əmr və nida cümlələrindən istifadə etməklə kiçikhəcimli dioloqların qurulması. | Nitq prosesi, məqsəd və intonasiyaya, nəqli, sual, əmr və nida cümləsi |
| 3.1.1. Kiçikhəcmli mətnləri düzgün oxuyur. | Oxu zamanı sait, samitlərin düzgün tələffüz edilməsi, vurğudan, söz və söz birləşmələri arasındakı fasilədən yerində istifadə edilməsi, kiçikhəcmli mətnlərin düzgün oxunması | Sait və samitlər, vurğu, söz, söz birləşmələri, fasilə |
| 3.1.2. Oxuduğu kiçikhəcimli mətnin məzmunu barədə məlumat verir. | Kiçikhəcmli mətnlərin oxunması, əsas fakt və hadisələrin, eyni zamanda onlar arasındakı məntiqi əlaqənin müəyyənləşdirilməsi, mətnin məzmunu barədə məlumat verilməsi. | Kiçikhəcmli mətnlər, fakt və hadisə, məntiqi əlaqə |
| 3.1.3. Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. | Lüğətlərdən istifadə qaydalarının müəyyənləşdirilməsi, oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözlərin seçilməsi, lüğət vasitəsilə onların ana dilinə və ya əksinə tərcümə edilməsi. | Lüğət, kiçikhəcmli mətn, tərcümə etmək |
| 4.1.1. Eşitdiyi sözləri və sadə cümləleri düzgün yazır. | Azərbaycan dilinin orfoqrafiya qaydalarına əməl edilməsi, saitlərin və samitlərin yazılışı və tələffüzü arasındakı fərqin müəyyənləşdirilməsi, eşitdiyi söz və cümlələrin düzgün yazılması. | Azərbaycan dilinin orfoqrafiya qaydaları, saitlərin yazılışı, samitlərin yazılışı, söz, cümlə |
| 4.1.2. Yazı prosesində durğu işarələrinə(nöqtə,sual işarəsi,nida) aid qaydalara əməl edir. | Qrafikada durğu işarələrinin rolunun və hansı məqsədlə işləndiyinin müəyyənləşdirilməsi, yazı prosesində nöqtə,sual işarəsi və nidanın istifadə qaydalarına əməl edilməsi. | Durğu işarələri, nöqtə,sual işarəsi, nida |
| 4.1.3. Kiçikhəcmli mətnlər(açıqca, məktub)yazır. | Kiçikhəcmli mətnlərin - açıqca və məktubun məzmun və struktrunun müəyyənləşdirilməsi, onlara aid nümunələrin yazılması. | Yazılı nitq, kiçikhəcmli mətnlər - açıqca, məktub |
| | **IV sinif** | |
| 1.1.1. Sinifdaxilində müraciətləri yerinə yetirir. | Hər hansı bir məsələ ilə bağlı sinif daxilində olunan müraciətlərin yerinə yetirilməsi | Müraciət, yerinə yetirmə |

| | | |
|---|---|---|
| 1.1.2. Dinlədiyi cümlələri intonasiyaya görə fərqləndirir. | Dinlənilən nəqli, sual, nida və əmr cümlələrinin intonasiyaya görə bir birindən fərqləndirilməsi. | Nəqli, sual, əmr və nida cümləsi,intonasiya |
| 1.1.3. Dinlədiyi mətnləri hissələrə ayırır və onları adlandırır. | Dinlənilən mətnin məzmununun müəyyənləşdirilməsi, əsas hadisələrin seçilməsi, tərkib hissələrinin(giriş, əsas hissə və nəticə) adlandırılması | Mətnin məzmunu, mətnin tərkib hissələri, giriş, əsas hissə, nəticə |
| | **Danışma** | |
| 2.1.1.Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. | Dilimizin orfoepik qaydalarının, eyni zamanda, onların işlənmə məqamı və yeri də nəzərə alınmaqla söz, söz birləşməsi və nitq etiketlərinin düzgün tələffüz edilməsi. | Orfoepik qaydalar, söz, söz birləşmələri və nitq etiketlərini |
| 2.1.2. Cümlələri düzgün intonasiya ilə tələffüz edir. | Nəqli, sual, nida və əmr cümlələrinin işlənmə məqsədinin müəyyənləşdirilməsi və onların düzgün intonasiyaya uyğun olaraq tələffüz edilməsi. | Nəqli, sual, nida və əmr cümləsi, məqsədi tələffüz etmək |
| 2.2.1. Əşya və hadisələrə öz münasibətini bildirir. | Əşya və hadislərin mahiyyətinin öyrənilməsi, xüsusiyyətlərinin analiz, sintez edilməsi və onlara subyektiv münasibət bildirilməsi. | Əşya və hadislərin mahiyyəti, analiz, sintez, subyektiv münasibət |
| 2.2.2. Müxtəlif şəxslərin dilindən kiçikhəcimli mətnlər qurur. | Şəxs anlayışının müəyyənləşdirilməsi, sözlərin bütün şəxslərə görə təsnif edilməsi, müxtəlif şəxslərin dilindən kiçikhəcimli mətnlərin qurulması. | Şəxs anlayışı, təsnif etmək, kiçikhəcmli mətnlər |
| 2.2.3. Sadə cümlələrdən istifadə etməklə ünsiyyət qurur. | Danışığında sadə cümlələrdən istifadə edilməsi. | Sadə cümlə, ünsiyyət qurma |
